AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

30 iyun 2017-ci il | № 45-48 (9139) | www.seanews.az | Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### GƏLƏCƏYİN DƏNİZÇİLƏRİ QARA DƏNİZƏ TƏCRÜBƏYƏ YOLLANIBLAR



***Dövlət Dəniz Akademiyasının III kursda oxuyan altı tələbəsi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin təşəbbüsü ilə Qara dənizdə təcrübə keçəcəklər. Onların üçü gəmi sürücüsü, üçü isə mexanik ixtisası üzrə təhsil alır.***

Səh. 3

### MÜHÜM MƏSƏLƏLƏR ƏTRAFINDA FİKİR MÜBADİLƏSİ APARILIB




***Beynəlxalq Dəniz Təşkilatının (BDT) Londonda yerləşən baş qərargahında bu qurumun Dəniz Təhlükəsizliyi Komitəsinin 98-ci sessiyası keçirilib.***

Səh. 4

### GƏMİ-BƏRƏNİN ƏSASLI TƏMİRİ BAŞA ÇATIB




***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə məxsus "Akademik Zərifə Əliyeva" gəmi-bərəsi təmir olunub. "Zığ" Gəmi Təmiri Zavodunda başlayan əsaslı təmir işləri qısa müddətdə və yüksək keyfiyyətlə həyata keçirilib.***

Səh. 5

### "BİZİM OKEANLARIMIZ, BİZİM GƏLƏCƏYİMİZ"DİR



***8 İyun - Ümumdünya Okeanlar Günü idi. Bu təqvimin qeyd edilməsi 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində BMT-nin "Ətraf mühit və inkişaf" konfransında elan edilib.***

Səh. 6

### BUZLAQLARIN 2100-CÜ İLƏ QƏDƏR ƏRİMƏSİ BARƏDƏ XƏBƏRDARLIQLAR HƏQİQƏT OLSA...



***Antarktida buzlaqlarının 2100-cü ilə qədər əriməsi barədə xəbərdarlıqlar həqiqətdirsə, biz imperator pinqvinlərini həmişəlik itirə bilərik.***

"ecoportal" saytı xəbər verir ki, Antarktida buzlaqlarının əriməsi imperator pinqvinlərini çoxalma və qidalanma məkanlarından məhrum edərək, onların mövcudluğunu təhlükə altına qoya bilər.

Səh. 7

### 2018-Cİ İLDƏ FORMULA-1 AZƏRBAYCAN QRAN-PRİSİ APREL AYINDA KEÇİRİLƏCƏK



**2018-ci ildə**

***Formula-1 Azərbaycan Qran-Prisi aprelin 27-29-da keçiriləcək.***

Səh. 8

**Azərbaycan Respublikasının dəniz nəqliyyatı işçilərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:
Cəfərov Namiq Hüseynqulu oğlu
Məmmədov Məmməd Əli oğlu
Teymurov Fikrət Cümşüd oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 23 iyun 2017-ci il.*



**Azərbaycan Respublikasının dəniz nəqliyyatı işçilərinə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar mühəndis" fəxri adı verilsin:

Həsənov Şəmistan Hüseyn oğlu
Qurbanov Taqət Allahqulu oğlu
Rəcəbov Eldar Həsən oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 23 iyun 2017-ci il.*

**Azərbaycan Respublikasının dəniz nəqliyyatı işçilərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda dəniz nəqliyyatının inkişafında xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağakişiyev Samir Yermaq oğlu
Aslanov Boris Qurbanoviç
Bağırova Nigar Yusif qızı
Cabbarov Mircavan Cabbar oğlu
Dadaşov Şakir Oruc oğlu
Həsənov Ülvi Namət oğlu
İmanov Daməd Bahadur oğlu
İsmayılov Əhməd Məhəmməd oğlu
Kazımova Nisa Bufa qızı
Quliyev Vaqif Həsənqulu oğlu
Mirzəyev Şaiq Nəsib oğlu
Nağıyev Zaur Rəsul oğlu
Pirmuradov Ayaz Dalail oğlu
Poladov Oqtay Ağalar oğlu
Rüstəmov Elçin Zeynalabdul oğlu
Tarverdiyev Qaraxan Bəxtiyar oğlu
Vorobyova Yekaterina İvanovna.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 23 iyun 2017-ci il.*

### *25 iyun "Dənizçi günü" idi*

# DƏNİZÇİLƏR PEŞƏ BAYRAMLARINI QEYD ETDİLƏR













***Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 19 iyun tarixli Sərəncamı ilə hər il 25 iyun Azərbaycanda "Dənizçi günü" peşə bayramı kimi qeyd olunur.***

Dövlət Dəniz Administrasiyasının və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin kollektivləri iyunun 23-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn ziyarətçilər Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının, o cümlədən dənizçi şəhidlərin xatirəsini ehtiramla yad edib, məzarları üzərinə gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Daha sonra dənizçilərin peşə bayramı münasibətilə Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının akt zalında tədbir keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev dənizçiləri peşə bayramı münasibətilə təbrik edib, hər birinə işlərində uğurlar arzulayıblar.

Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov bildirib ki, Ulu Öndər Heydər Əliyevin dövlət quruculuğu sahəsində təkrarolunmaz istedadı və ideyası nəticəsində iqtisadiyyatımızın strateji cəhətdən mühüm sahələrindən olan dəniz nəqliyyatının inkişafı istiqamətində formalaşdırdığı siyasət və qeyd edilən sahəyə diqqət onun layiqli davamçısı möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda respublikamızda iqtisadiyyatın bütün sahələri ilə yanaşı, dəniz nəqliyyatının da sürətli inkişafı, dövlətimizin tranzit nəqliyyat dəhlizlərinin formalaşmasında iştirak etməsi, dəniz nəqliyyatı sahəsində təhlükəsizliyin artırılması və dəniz mühitinin qorunub saxlanması möhtərəm prezidentimiz İlham Əliyevin gərgin əməyinin nəticəsidir.

Dövlət başçısının həyata keçirdiyi uğurlu siyasət nəticəsində respublikamızda iqtisadiyyatın dinamik inkişafı dəniz nəqliyyatından da yan keçməmiş, bu sahəyə cənab Prezidentin göstərdiyi diqqət və qayğının sayəsində görülmüş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan Respublikasının bayrağı altında üzən gəmilərdə təhlükəsizliyin təmin olunması, gəmilərdən dənizin çirkləndirilməsinin qarşısının alınması ilə əlaqədar Beynəlxalq Konvensiyaların tələblərinə ciddi riayət olunması təmin edilib.

Qüdrət Qurbanovun sözlərinə görə, Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006-cı il tarixli 1271 nömrəli Sərəncamı ilə yaradılan Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının səlahiyyətlərinə Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində aparılan siyasətin, habelə Birləşmiş Millətlər Təşkilatının dəniz nəqliyyatı sahəsində ixtisaslaşmış qurumu olan Beynəlxalq Dəniz Təşkilatı və digər təşkilatlarla əməkdaşlığın, Azərbaycan Respublikasının həmin sahədə tərəfdar çıxdığı beynəlxalq konvensiyaların icrasına nəzarətin həyata keçirilməsi aid edilib.

*(Ardı 2-ci səhifədə)*

*(Əvvəli 1-ci səhifədə)*

## *25 iyun "Dənizçi günü" idi*

# DƏNİZÇİLƏR PEŞƏ BAYRAMLARINI QEYD ETDİLƏR



















Məhz, dəniz nəqliyyatı sahəsi üzrə beynəlxalq konvensiyaların tələblərindən irəli gələn öhdəliklərin icra vəziyyətinin qiymətləndirilməsi məqsədi ilə Beynəlxalq Dəniz Təşkilatının Üzv Dövlətlərinin Audit Sxemi (IMSAS) üzrə adıçəkilən Təşkilatın 10 dekabr 2013-cü il tarixli A.1070(28) nömrəli və A.1105(29) nömrəli qətnamələrinə əsasən Audit Ekspert Qrupu bu ilin 28 may – 6 iyun tarixlərində Azərbaycanda səfərdə olub. Keçirilmiş audit yoxlaması zamanı Prezident cənab İlham Əliyevin rəhbərliyi altında dəniz nəqliyyatı sahəsində formalaşdırılmış siyasətə uyğun olaraq həyata keçirilən davamlı islahatlar və bu məqsədlə təsdiq olunmuş mövcud normativ hüquqi aktlar, habelə dəniz üzgüçülüyünün təhlükəsizliyi, dənizdə insan həyatının və dəniz mühitinin mühafizəsi sahəsində məqsədyönlü və ciddi tədbirlərin həyata keçirilməsi Audit Ekspert Qrupu tərəfindən xüsusi rəğbətlə qarşılanıb.

Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov xüsusi olaraq vurğulayıb ki, audit yoxlamasının tam obyektivliyə əsaslanan nəticələrinə görə respublikamızın 172 dünya dəniz dövləti sırasında ən qabaqcıllar olan Avropa və Skandinaviya dövlətlərini geridə qoyaraq, statistika üzrə ön sırada yer tutması bir daha sübut edir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən formalaşdırılmış dövlət siyasətinə uyğun olaraq ölkənin dinamik inkişafı, tranzit potensialının artırılması, regionun ən böyük nəqliyyat mərkəzi kimi mövqeyinin möhkəmləndirilməsi, qədim dənizçilik tarixinə malik respublikamızın dəniz qüdrətinin daha da yüksəldilməsi, eləcə də region dövlətləri ilə yanaşı, dünyanın qabaqcıl dəniz dövlətləri ilə rəqabətədavamlı dəniz nəqliyyatı sahəsinin formalaşdırılması istiqamətində gələcəkdə də uğurların əldə ediləcəyi şübhəsizdir.

Qüdrət Qurbanov Azərbaycan Respublikasının 4 mart 2016-cı il 165-VQ nömrəli Qanunla "Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında Konvensiyası"na və "Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında 1982-ci il 10 dekabr tarixli Konvensiyasının XI Bölməsinin həyata keçirilməsinə dair Saziş"ə qoşulduğunu və adıçəkilən Konvensiyanın iştirakçı dövlətlərinin iclasında Respublikamızın ilk dəfə təmsil olunduğunu qeyd edərək, prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dəniz nəqliyyatı sahəsinin daha da inkişaf etdirilməsi üçün dənizçilərin fədakar əməklərini əsirgəməyəcəklərinə əminliyini ifadə edib.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev çıxışında bildirib ki, yerli və beynəlxalq daşımaların səmərəliliyinin artırılması, ölkənin rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsi məqsədilə 2013-cü ilin oktyabrında Prezident İlham Əliyevin Sərəncamına əsasən yaradılmış "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün Xəzərdə və Xəzərdənkənar hövzələrdə rəqabətədavamlı və beynəlxalq standartlara uyğun dəniz xidmətləri göstərən nüfuzlu və çevik gəmiçilik şirkəti qurmaq, kommersiya baxımından səmərəli fəaliyyəti təmin etmək, Azərbaycanın beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsinə əhəmiyyətli töhfə vermək, gəmiçilik sahəsində yüksək ixtisaslı yerli kadrların formalaşmasına nail olmaq əzmindədir. Bu istiqamətdə artıq xeyli iş görülüb.

R.Vəliyev qeyd edib ki, Gəmiçiliyin rəhbərliyi ilk növbədə 5 illik hədəfləri müəyyənləşdirib. Bunlar AXDG-nin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılması və Xəzərdənkənar fəaliyyətinin bərpası, donanmaların yenilənməsi, beynəlxalq idarəetmə və maliyyə sisteminin tətbiqi, fəaliyyətin beynəlxalq auditinin keçirilməsi, müvafiq beynəlxalq sertifikatların və kredit reytinqinin alınması, mövcud infrastrukturun və maddi-texniki təchizat bazasının təkmilləşdirilməsi, işçilərin rifahının mütəmadi yaxşılaşdırılması, kadr hazırlığı və sair hədəflərdir.

"Ulu öndər Heydər Əliyevin 1969-cu ildə respublikamıza rəhbər təyin edilməsi ilə iqtisadiyyatımızın bir çox sahələri kimi, neft sənayesində də yeni inkişaf dövrü başladı. Həmin dövrdə neft-qaz ehtiyatlarının çox hissəsinin yerləşdiyi dəniz yataqlarının kəşf edilib istismara verilməsi xeyli sürətləndi. Dənizdə bir-birinin ardınca çoxsaylı neft-qaz yataqlarının, o cümlədən zəngin "Günəşli" yatağının kəşfi məhz Ulu Öndərin rəhbərlik illərinə təsadüf edir. Dənizdəki neft-qaz yataqlarının genişmiqyaslı işlənməyə cəlbi Xəzər Dəniz Neft Donanmasının da imkanlarını xeyli artırdı. 80-ci illərdən dənizin dərin sahələrində yerləşən neft-qaz yataqlarının mənimsənilməsini təmin etmək üçün daha müasir və güclü gəmilərin tikilməsinə ehtiyac duyuldu. Ona görə də 1980-ci ildən bu donanmaya xarici ölkələrdə – Almaniya, Finlandiya, Norveç, Polşa, Yuqoslaviya, Bolqarıstan və Fransada inşa edilmiş gəmilər alındı. Oxşar proses Xəzər Dəniz Gəmiçiliyində də gedirdi. Xorvatiyada sifariş verilmiş 8 gəmi-bərə keçmiş SSRİ-nin başqa gəmiçiliklərinə verilmədi, Moskvada Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışan Heydər Əliyevin şəxsi göstərişi ilə Bakıya gətirildi. Belə faktlar çoxdur. Dənizçilər bunu yaxşı bilir, yüksək qiymətləndirirlər", – deyə R.Vəliyev vurğulayıb.

Gəmiçiliyə beynəlxalq sertifikatların verilməsi və kredit reytinqinin alınması barədə danışarkən Rauf Vəliyev deyib ki, "Ernst & Young" şirkəti beynəlxalq standartlara uyğun hazırlanmış maliyyə hesabatlarının və Davamlı inkişaf haqqında hesabatın auditini həyata keçirərək müsbət rəy verib, "Fitch Rating" şirkəti ilə Gəmiçiliyə kredit reytinqinin alınmasına dair əməkdaşlıq sahəsində uğurlu iş aparılıb.

Rauf Vəliyev gənclər və kadr siyasətindən, AXDG-nin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılması istiqamətində atılan addımlardan, Xəzərdənkənar fəaliyyətin bərpası və donanmaların yenilənməsindən ətraflı söhbət açıb, qarşıda daha mühüm vəzifələrin durduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilk növbədə dəniz nəqliyyatına dövlətimizin dəstəyinə, xüsusilə də Prezident İlham Əliyevin daimi diqqətinə güvənir. Son dövrdə imzalanmış fərman və sərəncamlar strateji əhəmiyyət daşıyır. Belə ki, Xəzər Dəniz Gəmiçiliyinin inkişaf istiqamətlərinin müəyyən edilməsi, Prezident İlham Əliyevin Sərəncamı ilə "2016-2020-ci illərdə Azərbaycan Respublikasında gəmiçiliyin inkişafına dair Dövlət Proqramı"nın qəbul olunması Gəmiçilik qarşısında qlobal vəzifələr qoyur. Bu gün Xəzər regionunda bir sıra irimiqyaslı beynəlxalq layihələr həyata keçirilir. Şərq-Qərb, eləcə də Şimal-Cənub istiqamətlərində nəqliyyat dəhlizlərinin inkişafına yönəlmiş bu layihələr – Bakı-Tbilisi-Qars dəmir yolu, Azərbaycanla İran arasında dəmir yolu xəttinin tikintisi, Xəzərdə ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin yekunlaşdırılması Gəmiçilik üçün yeni hədəflər müəyyənləşdirir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi qarşıda duran bütün məqsədlərə nail olmaq və yeni uğurlara imza atmaq üçün tam gücü ilə çalışır.

Ölkəmizdə həyata keçirilən irimiqyaslı infrastruktur layihələri Xəzər dənizi üzərindən artması gözlənilən yükdaşıma həcmlərinin qarşılanması üçün Gəmiçiliyin donanmasının davamlı yenilənməsi çox vacibdir. Bu baxımdan, 2013-cü ildə açılan Bakı Gəmiqayırma Zavodu böyük əhəmiyyət kəsb edir. Bu zavod tərəfindən Gəmiçilik üçün indiyədək dörd gəmi tikilərək istifadəyə verilib. Bu yaxınlarda daha dörd gəminin-vaqon-TIR və sərnişin daşınması üçün nəzərdə tutulan yeni nəsil iki unikal Ro-Pax/Bərə və iki tankerin tikintisi üzrə yeni sifariş verilib.

Həmçinin, Rauf Vəliyev son 3 il 17 yeni gəminin alındığını bildirib. Bunlardan 1 ədəd Xəzərdə ən böyük yedək-təchizat gəmisi, 8 ədəd 5,500 ton yük götürmə qabiliyyətli quru yük gəmisi, 1 ədəd 13,000 tonluq tanker, 3 ədəd təchizat gəmisi, 1 ədəd liman-yedək, 3 ədəd sərnişin gəmisidir.

Mərasimdə "Rusiya Dəniz Registri Azərbaycanda" QSC-nin sədri Şaban Quliyev, uzaq səfərlər kapitanı Muxtar Axundov və başqaları son illərdə dəniz nəqliyyatının inkişafında müşahidə edilən müsbət dəyişikliklərdən və müasir tendensiyalardan danışıb, peşə bayramını qeyd edən dənizçiləri və onların ailələrinin hər bir üzvünü təbrik edib, zəngin təcrübəyə malik Azərbaycan dənizçilərinin onlara göstərilən yüksək etimadı layiqincə doğruldacaqlarına əminliyini ifadə ediblər.

Əməkdə fərqlənənlərə "Dənizçi günü" münasibətilə "Dəniz Donanmasının fəxri işçisi" döş nişanları təqdim olunub.

Sonda bütün dənizçilər adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət ünvanlanıb.

# T Ə B R İ K   E D İ R İ K !

### SƏMƏRƏLİ ƏMƏK FƏALİYYƏTLƏRİNƏ GÖRƏ VƏ "DƏNİZÇİ GÜNÜ" PEŞƏ BAYRAMI MÜNASİBƏTİLƏ AŞAĞIDAKI ŞƏXSLƏR AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASININ RƏİSİ QÜDRƏT QURBANOVUN ƏMRİ İLƏ "DONANMANIN FƏXRİ İŞÇİSİ" DÖŞ NİŞANI İLƏ TƏLTİF EDİLMİŞLƏR

**Əzizli Ələkbər Əziz oğlu** – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi departamentinin rəisi;

**Hüseynov Hikmət Şəmməd oğlu** – Dəniz Nəqliyyatı Donanmasının "Natəvan" gəmisinin kapitanı;

**Cəfərov Yaşar Yaqub oğlu** – Dəniz Nəqliyyatı Donanmasının "Naxçıvan" gəmisinin dördüncü mexaniki;

**Pənahalıyev Şəmil Feyruz oğlu** – Xəzər Dəniz Neft Donanmasının "Kapitan Ağasıyev" gəmisinin kapitanı;

**Əsgərov Yəhya İsmayıl oğlu** – Xəzər Dəniz Neft Donanmasının "General Şıxlinski" gəmisinin böyük mexaniki;

**Bağırov Nərman Tirman oğlu** – "Bibiheybət" Gəmi Təmiri Zavodunun Mexaniki təmir bölməsinin böyük ustası;

**Kərimov Əlihəsən Əlisa oğlu** – "Zığ" Gəmi Təmiri Zavodunun Mexaniki təmir bölməsinin ustası;

### *Səmərəli əmək fəaliyyətlərinə görə və "Dənizçi günü" peşə bayramı münasibətilə aşağıdakı şəxslər Cəmiyyətin sədri Rauf Vəliyevin əmri ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Fəxri fərmanı ilə təltif edilmişlər:*

**Abdullayev Müslüm Budaq oğlu** - İstismar-kommersiya departamentinin dispetçeri

**Kərimov Taryel Vaqif oğlu** - Dəniz üzgüçülüyünün təhlükəsizliyi departamentinin mühəndisi

**Bağırov Toğrul Nazimoviç** - Dəniz üzgüçülüyünün təhlükəsizliyi departamentinin mühəndisi

**Əliyev Əyyam Əzizağa oğlu** - İnsan resurslarının idarə edilməsi departamentinin rəis mavini

**Hüseynova Sevinc Əhəd qızı** - Maliyyə və uçot departamentinin mühasibi

**Hacıəliyev Fuad Sevdagər oğlu** - Risklərin idarə edilməsi və sığorta şöbəsinin rəisi

**Quliyev Elçin Yusif oğlu** - Təchizat departamentinin aparıcı mütəxəssisi

**Mikayılov Rəhim Fərail oğlu** - Əsaslı tikinti və təmir şöbəsinin mühəndisi

**Fərzəliyev Zaur Mişan oğlu** - Sosial inkişaf və nəqliyyat şöbəsinin mühəndisi

**Əhədov İsağ Yasər oğlu** - Audit departamentinin auditoru

**Niyazov Cabir Akif oğlu** - Hüquq departamentinin rəis müavini

**Bağırov Vaqif Məşədi Məmmədəli oğlu** - KSƏTƏMM departamentinin mühəndisi

**Məmmədli Eldar Azad oğlu** - İnformasiya texnologiyaları departamentinin rəis müavini

**Hüseynov Rəşad Kamil oğlu** - Məxfi rejim və hərbi səfərbərlik şöbəsinin rəisi

**Əlizadə Sevinc Ağa Səlim qızı** - İnzibatı işlər və ictimaiyyətlə əlaqələr departamentinin referenti

**Mirzəmətov Jora Feyzulla oğlu** - Xəzər Dəniz Neft Donanmasının böyük mexaniki

**Məmmədov Hafiz Şahniyar oğlu** - Xəzər Dəniz Neft Donanmasının bosmanı

**Qubadov Mehti Əbülfəz oğlu** - Xəzər Dəniz Neft Donanmasının böyük motorçusu

**Zeynalov Rauf Məhəmməd oğlu** - Xəzər Dəniz Neft Donanmasının 1-ci dərəcəli matrosu

**Rüstəmov Ramiz Məcnun oğlu** - Xəzər Dəniz Neft Donanmasının Texniki istismarı xidmətinin hamiyəçi elektromexaniki

**Kazımova Natalya Qennadyevna** - Xəzər Dəniz Neft Donanmasının Mühasibat uçotu və hesabatı şöbəsinin Mühasibat qrupunun rəhbəri

**Əlişanova Səmayə Sultanəli qızı** - Xəzər Dəniz Neft Donanmasının İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri şöbəsinin arxiv müdiri

**Mirzəyev Cahangir Çərkəz oğlu** - Xəzər Dəniz Neft Donanmasının Təchizat xidmətinin anbardarı

**Şahbazov Seyran Hüseyin oğlu** - Dəniz Nəqliyyatı Donanmasının kapitanı

**Səlimov Elmar Fikrət oğlu** - Dəniz Nəqliyyatı Donanmasının kapitanı

**Süleymanov Mirzə Hüsən oğlu** - Dəniz Nəqliyyatı Donanmasının böyük mexaniki

**Xanseyidov Nurməmməd Xasənməd oğlu** - Dəniz Nəqliyyatı Donanmasının bosmanı

**Əmiraslanov Rasim Faiq oğlu** - Dəniz Nəqliyyatı Donanmasının matrosu

**Cavadov Rəhman Əziz oğlu** - Dəniz Nəqliyyatı Donanmasının elektromexaniki

**Tağıyev Etibar Ayaz oğlu** - Dəniz Nəqliyyatı Donanması rəisinin ümumi məsələlər üzrə müavini

**İsmayılzadə Aydın Ələkbər oğlu** - Dəniz Nəqliyyatı Donanmasının Texniki istismarı xidmətinin mühəndisi

**Cəlilov Arif Əbülfəz oğlu** - İstehsalat Xidmətləri İdarəsinin Mülki müdafiə və hərbi səfərbərlik şöbəsinin rəisi

**Abadov Asif Akif oğlu** - İstehsalat Xidmətləri İdarəsinin Personalın idarə edilməsi və əmək haqqı şöbəsinin rəis müavini

**Hacıyev İlqar Ağayar oğlu** - İstehsalat Xidmətləri İdarəsinin Nəqliyyat bölməsinin sürücüsü

**Qasımov Tahir Feyzi oğlu** - İstehsalat Xidmətləri İdarəsinin Tikinti-quraşdırma bölməsinin suvaqçısı

**İsmayılov Zahid Qiyas oğlu** - "Bibiheybət" Gəmi Təmiri Zavodunun Təmizləmə-rəngləmə bölməsinin rəisi

**Hacıyev Tofiq Niyətulla oğlu** - "Bibiheybət" Gəmi Təmiri Zavodunun Gövdə-qaynaq bölməsinin böyük ustası

**Əliyev Vidadi Əli oğlu** - "Bibiheybət" Gəmi Təmiri Zavodunun Elektrik quraşdırma bölməsinin 6-cı dərəcəli gəmi elektrik quraşdırıcısı

**Vəliyev Sarvan Babaverdi oğlu** - "Bibiheybət" Gəmi Təmiri Zavodunun Mexaniki təmir bölməsinin Boruçəkmə sahəsinin böyük ustası

**Babayev Nizami Mevlan oğlu** - "Zığ" Gəmi Təmiri Zavodunun Personalın idarə edilməsi və əmək haqqı şöbəsinin rəisi

**Məmmədova Dilarə Əli qızı** - "Zığ" Gəmi Təmiri Zavodunun Texniki şöbəsinin mühəndis-konstruktoru

**Piriyev Çingiz Əmirşah oğlu** - "Zığ" Gəmi Təmiri Zavodunun Ağac emalı sahəsinin dülgəri

**Əmirxanov İlqar Fikrət oğlu** - Xəzər Dəniz Nəqliyyat Layihə-Axtarış və Elmi-Tədqiqat İnstitutunun baş mühəndisi

**Əliyev Sabir Allahyar oğlu** - Azərbaycan Dövlət Dəniz Akademiyasının Mexanika və riyaziyyat kafedrasının dosenti

**Əsgərov Rafiq Xəlil oğlu** - Azərbaycan Dövlət Dəniz Akademiyasının Dəniz naviqasiyası fakültəsinin dekanı

**Avramenko Natalya İqoryevna** - Azərbaycan Dövlət Dəniz Akademiyasının baş müəllimi

**Hacıyev Hacı Rasim oğlu** - Sosial İnkişaf İdarəsinin 1 №-li Poliklinikasının Konsultativ şöbəsinin həkim-dermatovenerologu

## Dənizçilərimiz bundan sonra da müqəddəs üçrəngli bayrağımızı yaxın-uzaq ölkələrin sularında böyük iftixarla dalğalandıracaqlar

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev iyunun 23-də dənizçiləri peşə bayramı münasibətilə təbrik edib. Təbrikdə deyilir:***

***Hörmətli həmkarlar!***

Artıq dördüncü ildir ki, möhtərəm Prezidentimiz İlham Əliyevin 19 iyun 2014-cü il tarixli Sərəncamı ilə təsis olunan və bütün dəniz nəqliyyatı işçilərinə ərməğanı hesab etdiyimiz 25 iyun - "Dənizçi günü" peşə bayramını böyük sevinc və dərin minnətdarlıq hissi ilə qeyd edirik.

Sizi peşə bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, sizə uzun ömür, möhkəm cansağlığı, müstəqil Azərbaycanımızın tərəqqisi naminə çətin və şərəfli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

Hər il peşə bayramı ərəfəsində bir qrup əməkdaşın Vətənin yüksək mükafatları ilə təltif olunması dəniz nəqliyyatı işçilərinin fədakar əməyinin dövlət tərəfindən layiqincə qiymətləndirilməsinin bariz nümunəsidir. Möhtərəm Prezidentimiz 2017-ci il iyunun 23-də imzaladığı Sərəncamlarla bu dəfə də bayram sevincimizə sevinc qatdı.

Dəniz nəqliyyatında səmərəli əmək fəaliyyətlərinə görə Gəmiçiliyin 11 işçisinin "Tərəqqi" medalı ilə təltif edilməsi, 1 nəfərin "Əməkdar mühəndis" fəxri adına, 1 nəfərin isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülməsini Gəmiçiliyin bütün kollektivinin əməyinə verilən yüksək qiymət kimi dəyərləndiririk.

Bayramdan ötən bir il çoxminli kollektivimiz üçün uğurlu oldu. Dinamik inkişaf edən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin müasir şirkətə çevrilməsi, beynəlxalq standartlara uyğun fəaliyyəti, rəqabət qabiliyyətinin artırılması istiqamətində mühüm addımlar atıldı. Xəzərdə aparıcı mövqeyini möhkəmləndirən AXDG Xəzərdənkənar fəaliyyətinin genişləndirilməsinə də nail oldu. Bildiyiniz kimi, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin xarici sularda fəaliyyəti məhz Cəmiyyət yaranandan sonra, 2014-cü ildə "Üzeyir Hacıbəyli" və "Natəvan" gəmilərinin alınması ilə bərpa olunub. Sonrakı illər, o cümlədən keçən il yeni alınan teploxodlarla müstəqil Azərbaycanımızın üçrəngli bayrağı ilə Qara dəniz, Aralıq dənizi və digər hövzələrdə üzən gəmilərimizin sayı 10-a çatdırıldı.

Donanmalarımızın dövlətin dəstəyi və Gəmiçiliyin daxili imkanları hesabına alınan və daha geniş texniki imkanlara malik yeni gəmilərlə zənginləşdirilməsinin, Gəmiçilik üçün indiyədək dörd gəmi inşa edən Bakı Gəmiqayırma Zavoduna daha dörd gəminin-vaqon-TIR və sərnişin daşınması üçün nəzərdə tutulan iki unikal Ro-Pax/Bərə və iki tankerin tikintisinin sifariş edilməsinin sevincini də birgə yaşadıq.

Gəmiqayırmanın son nailiyyətləri əsasında inşa olunan hər təzə gəmi isə donanmamızın daha da gücləndirilməsi ilə yanaşı, həm də dənizçilərimiz üçün yeni iş yerləri deməkdir.

2016-cı il noyabrın 18-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Rəşid Behbudov" sürətli sərnişin gəmisi, "Gəncə" tankeri və "Qafur Məmmədov" quru yük gəmisinin, cari il mayın 31-də isə "Qubadlı" və "Cəbrayıl" təchizat gəmilərinin istismara verilməsi mərasimlərində dövlət başçımızın iştirakı isə bizə hədsiz sevinc bəxş etməklə yanaşı, həm də cavabdeh olduğumuz işlər üçün məsuliyyət hissimizi qat-qat artırdı.

"2016-2020-ci illərdə Azərbaycan Respublikasında gəmiçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq olunması da, "Fitch Ratings" şirkəti tərəfindən tarixində ilk dəfə Gəmiçiliyə kredit reytinqinin verilməsi də, Korporativ idarəetmə sisteminin davamlı təkmilləşdirilməsinə xüsusi diiqət yetirən Gəmiçilikdə fəaliyyətin nəticələrinə əsaslanan ödəniş sisteminin tətbiqi də iftixar doğuran hadisələrdir.

Əminəm ki, gündən-günə çiçəklənən müstəqil Azərbaycanı qətiyyətlə daha xoşbəxt gələcəyə aparan dövlət başçımızın hər sahədə mütərəqqi siyasətini dəstəklədiyinizi bundan sonra da əməli işinizlə sübut edəcək, müqəddəs üçrəngli bayrağımızı yaxın-uzaq ölkələrin sularında böyük iftixarla dalğalandıracaq, yük daşınmasında, Xəzərdə neft və qaz istehsalında yüksək dəniz nəqliyyatı xidmətləri göstərilməsində çiyninizə düşən bütün vəzifələri layiqincə yerinə yetirəcəksiniz.

Sizə aydın səma, uğurlu səfərlər arzulayıram.

Bayramınız mübarək olsun!

***Rauf Vəliyev,***
***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri***





# "TOTAL" ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİ GƏMİÇİLİKDƏ

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də "TOTAL" şirkətinin nümayəndələri ilə görüş keçirilib.***

"AXDG" QSC-nin sədri Rauf Vəliyev qonaqlara rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat verib. Bildirib ki, tərkibində həm nəqliyyat, həm də neft donanması olan Gəmiçiliyin 300-ə yaxın gəmisi var. Rauf Vəliyev bir çox yerli və xarici şirkətlərə dənizdə neft və qaz hasilatında ofşor xidmətlər göstərən Gəmiçiliyin "TOTAL"la əməkdaşlığının da uğurlu olcağına əminliyini ifadə edib.

"TOTAL"ın nümayəndəsi xanım Karine Lafontaıne təqdimatla çıxış edib. Təmsil etdiyi şirkətin yaxın vaxtlarda "Abşeron" yatağında qaz hasilatına başlamaq üçün tərəfdaşları ilə birgə səylərini artırdıqlarını vurğulayıb. Xanım Karine Lafontaıne bildirib ki, "TOTAL" "Abşeron yatağına sualtı boru və kabellərin çəkilməsi üçün tender elan edib və qalib şirkət gələn ay məlum olacaq. Bundan sonra "TOTAL" və tenderin qalibi olan şirkətin nümayəndələri 2017-ci ilin iyul-avqust aylarında Gəmiçiliyin neft donanmasının layihəyə uyğun olacaq gəmilərinə baxış keçirəcəklər.

Qeyd edək ki, görüşdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin alyans partnyoru olan "Caspian Marine Services" şirkətinin də nümayəndələri iştirak ediblər.

Danışıqlarda qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılıb.

# GƏLƏCƏYİN DƏNİZÇİLƏRİ QARA DƏNİZƏ TƏCRÜBƏYƏ YOLLANIBLAR

***Dövlət Dəniz Akademiyasının III kursda oxuyan altı tələbəsi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin təşəbbüsü ilə Qara dənizdə təcrübə keçəcək. Onların üçü gəmi sürücüsü, üçü isə mexanik ixtisası üzrə təhsil alır.***

AXDG-nin İnsan resurslarının idarəedilməsi departamentinin təlim və gənclərlə iş üzrə koordinatoru Cabir Süleymanlı tələbələrin kamil mütəxəssis kimi yetişməsində bu təcrübənin böyük rol oynayacağını bildirir: "Biz bu layihəni ikinci ildir həyata keçiririk. Keçən il dörd nəfər göndərilmişdi. Seçim aparılarkən öncə ADDA ilə məsləhətləşirik. Müəllimlərin bu məsələdə fikirləri öyrənilir. Daha sonra yüksək bal toplayan, intizamlı, ingilis və rus dillərində müəyyən səviyyəyə malik olan tələbələr müsahibə mərhələsinə çağırılır. Həmin mərhələdən uğurla keçənlər Qara dənizə təcrübəyə göndərilir."



Cabir Süleymanlının sözlərinə görə, gələcəkdə təcrübəyə göndərilən tələbələrin sayı artırılacaq. "Ümid edirik ki, gələn il ən azı 8-10 dənizçini bu layihəyə cəlb edə biləcəyik", - deyir

Təcrübə müddəti üç ay olacaq. Bütün xərcləri "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC qarşılayacaq.

Layihənin həyata keçirilməsində əsas məqsəd gəncləri həvəsləndirməkdir. Bundan başqa, tələbələr etimadı doğrultsalar, gələcəkdə onlara xarici sularda istismar edilən gəmilərimizdə işləmək imkanı da yaradıla bilər.

Bəli, qarşıda onları öz bilik və bacarıqlarını artırmaq üçün Qara dənizdə maraqlı və bir qədər də çətin günlər gözləyir.

Layihənin iştirakçısı, dəniz naviqasiya mühəndisliyi üzrə təhsil alan Cavidan Babayev deyir ki, bu, böyük fürsətdir. O, fürsəti qaçırmamaq üçün çox çalışıb. "Əslində, birinci kursdan yaxşı oxumuşam. İxtisas fənlərinə xüsusi diqqət yetirmişəm. Bu layihəni eşidəndən sonra isə daha çox oxudum. Belə olmasaydı, məqsədimə çatmazdım",-deyir.

Cavidan Babayevin Qara dənizdə keçəcəyi təcrübədən gözləntisi böyükdür. Düşünür ki, gələcəkdə iş tapmaq onun üçün çətin olmayacaq. O deyir: "İndi başqa müəssisələrdə təcrübəsi olmayanları işə götürmürlər. ADDA bu baxımdan bizə böyük şanslar qazandırır. Akademiyada təkcə nəzəri biliklərə yox, təcrübəyə də önəm verilir. Birinci və ikinci kursda Xəzərdə olduq, indi də Qara dənizə gedirik. Təbii ki, ordakı təcrübə zamanı ixtisasımız üzrə daha çox şeylər öyrənəcəyik."

Teyyub Məmmədov da seçilən tələbələrdəndir. Yeni limanlar, yeni sərhədlər, yeni insanlar onun üçün də maraqlıdır. Deyir ki, əvvəlki təcrübələrdə bir limandan girib, bir limandan çıxırdılar. Qara dənizdə isə Türkiyə, Rusiya, Gürcüstan, Ukrayna kimi ölkələrin hər birini görə biləcəklər. O, təcrübənin məhsuldar olacağına şübhə etmir: "Gələcək karyeram üçün Qara dəniz təcrübəsini böyük şans hesab edirəm. Dəstəyə və bu şəraitə görə, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin və Akademiyanın rəhbərliyinə minnətdarlığımı bildirirəm."

Təcrübəni vacib sayan Səid Mustafayev Qara dənizə getmək xəbərini eşidəndə çox sevinib. Düzdür, o yad sularda üzməyin çətin olacağını deyir. Buna baxmayaraq, dar keçidlər, kanallar, yeni insanlar, fərqli iş şəraiti hamı kimi Səidə də maraqldır. Hesab edir ki, bu təcrübə ona və tələbə dostlarına gələcəkdə böyük uğurlar gətirəcək.

Gəmi energetik qurğularının istismarı mühəndisliyinin daha bir tələbəsi Nurlan Dərziyev də dostları kimi bu səfərə ciddi hazırlaşıb. "Bu fürsəti ötən ildən səbirsizliklə gözləyirdim. Ciddi hazırlaşmışdım və nəticə mənim üçün çox sevindirici oldu. Düşünürəm, orda iş prosesi fərqlidir. Sənədləşmə, müxtəlif dənizlər, dənizlərin daha dərin olması və s. Böyük ümidlərlə gedirəm...",-deyir.

Nurlanın məqsədi yaxşı dənizçi olmaqdır. Özü də gələcəkdə müəllim olmaq istəyir. Düşünür ki, bu təcrübə ona hər iki gələcək karyerasında böyük kömək olacaq.

Dəniz naviqasiyası ixtisası üzrə oxuyan Vüsal Hüseynlinin də gələcəyin peşəkar dənizçisi olacağına şübhə yoxdur. Daha çox öyrənmək həvəsində olan Vüsal bu təcrübənin onun həyatında dönüş yaradacağını düşünür. O deyir: "Qara dənizin öz xüsusiyyətləri var. Orda təcrübə keçən tələbələr sırasında olduğum üçün özümü çox şanslı hesab edirəm. Bu təşəbbüsü irəli sürən hər kəsə təşəkkür edirəm. Etimadı doğrultmağa çalışacağam. Söz verirəm ki, gələcəkdə ən yaxşı dənizçilər sırasına adımı yazdıracağam. Bu dəstəyin və şəraitin qarşısında başqa cür mümkün deyil".

İlya Minayev də Qara dəniz təcrübəsinin maraqlı və faydalı keçəcəyinə əmindir. Deyir ki, orda təkcə dənizçiliklə bağlı bilgilərini artırmayacaqlar. Bu səfər dünyagörüşlərini artırmağa, dil biliklərini inkişaf etdirməyə də çox kömək olacaq. O deyir: "Valideynlərimin dəstəyi ilə dənizçi olmuşam. Bu peşəyə yiyələnmək mənim üçün böyük şərəfdir. Gələcəkdə peşəkar kadr olmaq üçün indi daha çox öyrənmək lazımdır. Bunun üçün isə hər cür şərait var. Akademiyada dərslər ən qabaqcıl sistemlə keçirilir. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin təşəbbüsü ilə xarici gəmilərdə üzmək üçün yaradılan imkan isə xüsusi ilə təqdirəlayiqdir".

Tələbələr bu təcrübəni uğurla başa vurmağı özlərinə borc bilirlər. Çünki, etimadı doğrultmağın vacib olduğunu dərk edirlər.

***Rövşən Abdurəhmanov***

## İSTANBULDA 22-Cİ DÜNYA NEFT KONQRESİ KEÇİRİLƏCƏK

***Türkiyə Prezidenti administrasiyasının himayədarlığı ilə iyulun 9-da İstanbulda 22-ci Dünya Neft Konqresi işə başlayacaq.***




Dünyanın aparıcı neft və qaz şirkətlərinin rəhbərlərinin iştirakı ilə keçiriləcək konqresdə Azərbaycan da təmsil olunacaq.

Türkiyənin ilk dəfə ev sahibliyi etdiyi konqresdə neft-qaz yataqlarına aid kəşfiyyat işləri, karbohidrogen ehtiyatların emalı, hazır məhsulların daşınması, onların alıcı tərəflərə təhlükəsiz çatdırılması və digər məsələlər ətrafında müzakirələr aparılacaq.

## ETİRAZ EDİB

***Yaponiyanın Xarici İşlər Nazirliyi mübahisəli Senkaku adaları yaxınlığında Çinin dörd gəmisinin ona məxsus ərazi sularına daxil olmasına görə bu ölkəyə etirazını bildirib. Bu barədə NHK telekanalı məlumat yayıb.***




Xatırladaq ki, şənbə günü səhər Çinin Sahil Mühafizəsinin gəmiləri Senkaku adaları yaxınlığında Yaponiyanın ərazi sularına daxil olub. Yaponiya Sahil Mühafizəsi Xidmətinin ərazini tərk etmək barədə çağırışlarına baxmayaraq, bu gəmilər iki saat orada qalıb.

Yaponiya Xarici İşlər Nazirliyinin Asiya və Okeaniya departamentinin direktoru Kenci Kanaşuqi Çin səfirliyinə ölkəsinin etirazını telefon vasitəsilə çatdırıb.

K.Kanaşuqinin sözlərini sitat gətirən telekompaniya yazır: "Senakaku adaları Yaponiyanın ayrılmaz tərkib hissəsidir. Yaponiyanın ərazi sularına qeyri-qanuni giriş ölkənin suverenliyini pozur və bu, tamamilə yolverilməzdir".

Senkaku adaları Yaponiyanın nəzarəti altında olsa da, Çin və Tayvan bu adalara iddialıdırlar.

# AZƏRBAYCAN YENİ NƏQLİYYAT DƏHLİZİNİN VƏ LOGİSTİK MƏRKƏZLƏRİN YARADILMASINDA ÇOX FƏAL ROL OYNAYIR

***Bu gün Avropa ilə Asiya arasında yüklərin tez və təhlükəsiz daşınması üçün yeni nəqliyyat dəhlizinin və logistik mərkəzlərin yaradılması istiqamətində mühüm addımlar atılır.***

Azərbaycan beynəlxalq daşınmalar üçün yeni nəqliyyat dəhlizinin və logistik mərkəzlərin yaradılmasında çox fəal rol oynayır.

Bu sözləri AZƏRTAC-a müsahibəsində "Gürcüstan Dəmir Yolları" ASC-nin baş direktoru Mamuka Baxtadze deyib.



Onun sözlərinə görə, bu gün Azərbaycan və Gürcüstan regionun inkişafı, təhlükəsizliyin təmin olunması, yeni nəqliyyat dəhlizlərinin və logistik mərkəzlərin yaradılması üçün mühüm işlər görürlər. Burada Azərbaycanın rolu xüsusi qeyd olunmalıdır. Bu günlərdə Tbilisidə Azərbaycan, Gürcüstan və İranın dəmir yolu rəhbərlərinin iştirakı ilə görüş oldu. Biz yeni logistik mərkəzlərin və nəqliyyat dəhlizinin açılması ilə bağlı çox mühüm məsələləri müzakirə etdik, yeni qərarlar qəbul etdik. Müzakirələrimizi Hindistanda davam etdirəcəyik. Bu gün Azərbaycan, İran və Gürcüstan Avropadan yüklərin Hindistana və digər ölkələrə daşınması üçün yeni bir dəhliz təklif edir. İnanırıq ki, Astara-Astara dəmir yolunun, Azərbaycanda, Gürcüstanda və İranda yeni logistik mərkəzlərin tikintisi vaxtında başa çatdırılacaq və biz, qarşımıza qoyduğumuz məqsədlərə nail olacağıq.

Mamuka Baxtadze deyib: "Azərbaycanın və Gürcüstanın birgə reallaşdırdıqları regional infrastruktur layihələri təkcə bu iki dövlətin iqtisadi inkişafına və ya təhlükəsizliyinə deyil, Avropa ilə Asiya arasında əlaqələrin, ticarət dövriyyəsinin genişlənməsinə, insanların rifah halının yaxşılaşmasına və sülhə xidmət edir".

***Xətayi Əzizov***

# MÜHÜM MƏSƏLƏLƏR ƏTRAFINDA FİKİR MÜBADİLƏSİ APARILIB

***Beynəlxalq Dəniz Təşkilatının (BDT) Londonda yerləşən baş qərargahında bu qurumun Dəniz Təhlükəsizliyi Komitəsinin 98-ci sessiyası keçirilib.***




Azərbaycan Dövlət Dəniz Administrasiyasının (ADDA) mətbuat xidmətindən bildirilib ki, 1995-ci ildən Azərbaycan Respublikasının üzv olduğu bu beynəlxalq təşkilatın sessiyasında ADDA-nın rəisi Qüdrət Qurbanovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

Sessiyada etimadnamələr haqqında məruzə, BDT-nin digər üzvlərinin qərarları, əsas sənədlərə dair düzəlişlərin qəbulu və nəzərdən keçirilməsi, BDT-nin sənədlərinin erkən tətbiqi, dənizdə təhlükəsizliyin artırılmasına dair tədbirlər, yeni gəmilərin inşa edilməsinə dair standartlar, yük və konteynerlərin daşınması, çirklənmənin qarşısının alınması və cavab tədbirləri, insan amili, təlim və növbəçəkmə, gəmi dizaynı və konstruksiyası, naviqasiya, kommunikasiya, axtarış və xilasetmə, gəmi sistemləri və avadanlıqları, yeni tədbirlərin tətbiq edilməsi üçün potensial imkanların yaradılması, dəniz üzgüçülüyünün təhlükəsizliyinin qiymətləndirilməsi, gəmilərə edilən silahlı basqın və dəniz quldurluğu, qeyri-qanuni miqrasiya, BDT alətlərinin implementasiyası, beynəlxalq təşkilatlarla əlaqələr və digər mühüm məsələlər müzakirə olunub.

Sessiyada "Dənizdə insan həyatının mühafizəsi haqqında 1974-cü il tarixli Beynəlxalq Konvensiya"ya (SOLAS), "Qaz və aşağı alışma temperaturuna malik digər yanacaqdan istifadə edən gəmilərin təhlükəsizliyi haqqında Beynəlxalq Məcəllə"yə (IGF Code), "Yüksək sürətli gəmi haqqında 1994-cü il tarixli Beynəlxalq Məcəllə"yə (1994 HSC Code), "Yüksək sürətli gəmi haqqında 2000-ci il tarixli Beynəlxalq Məcəllə"yə (2000 HSC Code), "Xilasedici vasitələr haqqında Beynəlxalq Məcəllə"yə (LSA Code), "Qalama üsulu ilə daşınan bərk yüklər haqqında Beynəlxalq Məcəllə"yə (IMSBC Code) təklif olunan düzəlişlər qəbul edilib.

Azərbaycan nümayəndə heyəti, həmçinin BDT-nin rəsmiləri, sessiyaya qatılmış bir sıra üzv dövlətlərin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirib. Görüşlərdə qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsi, habelə dəniz nəqliyyatı sahəsi ilə bağlı ölkəmiz üçün əhəmiyyətli olan bir sıra mühüm məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ DƏNİZ HÜQUQU HAQQINDA KONVENSİYASI"NIN İŞTİRAKÇI DÖVLƏTLƏRİNİN 27-Cİ İCLASI KEÇİRİLİB






***Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycanın təmsil olunduğu mötəbər tədbirdə Azərbaycan Respublikasının ilk dəfə iştirakı müsbət dəyərləndirilərək əminliklə vurğulanıb ki, bu iştirak gələcəkdə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına öz uğurlu töfhəsini verəcək.***

Azərbaycan Respublikasının "Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında Konvensiyası"-na və "Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında 1982-ci il 10 dekabr tarixli Konvensiyasının XI Bölməsinin həyata keçirilməsinə dair Saziş"ə qoşulması Dəniz Dibi üzrə Beynəlxalq Orqanın Baş katibi cənab Maykl Loc tərəfindən yüksək qiymətləndirilib.

İclasda, Dəniz hüququ haqqında Beynəlxalq Tribunalın 7 üzvü, Kontinental Şelf Limitləri üzrə Komissiyanın 21 üzvü seçilib, xarici auditorun 2015-2016-cı illər üzrə maliyyə hesabatı, büdcə məsələlərinə dair 2015-2016-cı illər üçün maliyyə hesabatı, etimadnamə komitəsinin hesabatı, Kontinental Şelf Limitləri üzrə Baş katibin hesabatı dinlənilib, rəsmi sənədlərə dair BMT-nin siyasəti, Dəniz hüququ haqqında Beynəlxalq Tribunalın büdcə məsələləri, katiblik tərəfindən digər məsələlər üzrə məlumatlar, iştirakçı dövlətlərin 26-cı iclasının qərarı əsasında daimi dəvət olunan Hökumətlərarası təşklatların siyahısı, BMT-nin okeanlarla iş və Dəniz Hüququ Sektorunun idarə etdiyi etibarlı fondlar və təqaüd proqramları müzakirə olunub.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov "Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında konvensiyası"nın bir sıra iştirakçı dövlətlərinin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirib. Görüş zamanı qarşılıqlı əməkdaşlığın daha səmərəli və effektiv həyata keçirilməsi ilə bağlı ölkəmiz üçün əhəmiyyətli olan bir sıra mühüm məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# AVROPA İTTİFAQININ KOMİSSARI: "BAKI LİMANI AVRASİYA ÖLKƏLƏRİ ARASINDA TİCARƏTƏ YENİ TƏKAN VERƏCƏK"






***Avropa İttifaqının genişlənmə danışıqları və Avropa Qonşuluq Siyasəti üzrə komissarı Yohannes Han Azərbaycana səfəri çərçivəsində Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanı ilə tanış olub.***

Limandan verilən məlumata görə, səfər çərçivəsində qonağa yeni Bakı Limanı və onun ətrafında qurulmaqda olan Azad Ticarət Zonasının (ATZ) Azərbaycana verəcəyi töhfələr barədə məlumat verilib. Yohannes Han, həmçinin limanın ərazisi, beynəlxalq standartlara uyğun prosedurlar, o cümlədən gömrük, sərhəd, bankçılıq xidmətləri, TIR-lar üçün yaradılmış şəraitlə əyani tanış olaraq, bərə terminalına baxış keçirib.

Görüş zamanı qonağa məlumat verilib ki, yeni Bakı Limanının tikintisinin birinci fazası bitdikdən sonra yükaşırma qabiliyyəti 15 milyon ton olacaq. Tikintinin ikinci və üçüncü fazaları yekunlaşandan sonra isə liman 25 milyon ton yük, o cümlədən 1 milyon TEU konteyner aşıra biləcək.

Komissar Yohannes Han ölkəmizə səfəri çərçivəsində "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-yə səfər etməsini vacib hadisə kimi dəyərləndirib. O, Bakı Limanının Mərkəzi Asiyaya çıxış qapısı olduğunu, Avropa İttifaqının (Aİ) qonşuluq siyasətində mühüm yer tutduğunu vurğulayaraq qeyd edib ki: "Avrasiya məkanında mühüm nəqliyyat və logistika qovşağı rolunu oynayan Bakı Limanı məni heyran etdi. Bu liman Azərbaycanla bütün region və Avrasiya ölkələri arasında ticarətə yeni təkan verəcək. Qeyd olunan layihə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində Azərbaycan hökumətinin qəbul etdiyi iqtisadi islahatlar haqqında yol xəritəsinin xoş səylərini nümayiş etdirir."

Bakı Limanının baş direktoru Taleh Ziyadov liman ətrafında qurulmaqda olan ATZ-nin Avropa İttifaqı şirkətləri və investorları üçün ideal logistika, paylaşdırma və istehsalat mərkəzi olduğunu vurğulayıb. Qeyd edilib ki, zonada neft-kimya, əczaçılıq, maşınqayırma, tekstil və sair sahələrdə istehsalatın qurulacağı planlaşdırılır. Eyni zamanda, ATZ-nin xüsusi qanunvericiliklə tənzimlənəcəyi nəzərdə tutulur.

Baş direktor T. Ziyadov bildirib ki, Azərbaycanın böyük hab konsepsiyası hazırda İpək Yolu layihəsində iştirak edən müxtəlif ölkələrin diqqət mərkəzindədir və bu konsepsiyaya maraq olduqca yüksəkdir. İnanıram ki, Ələt ATZ Mərkəzi Asiya, Çin, Türkiyə, İran, Hindistan, Pakistan, Rusiya kimi ölkələrlə ticarət əlaqələri quran Avropa investorları və şirkətləri üçün mühüm əlaqələndirici məkan olacaq.

Xatırladaq ki, Bakı Limanı Avropa İttifaqı ilə sıx əməkdaşlıq edir. İttifaq ilə Bakı Limanı arasında yeni Bakı Limanının və Ələt Azad Ticarət Zonasının əməliyyat imkanlarının yaxşılaşdırılmasına dəstək adlı layihə sənədi imzalanıb. Layihə çərçivəsində digər tədbirlərlə yanaşı Aİ-nin Hamburq, Koper və Trieste kimi qabaqcıl limanlarına təlim səfərləri təşkil olunmuş və təcrübə mübadiləsi aparılıb. Ümumiyyətlə, Bakı Limanının müasir və şəffaf prinsiplərə söykənən iş rejimi, "yaşıl" və "smart" texnologiyalardan istifadəsi Avropa İttifaqı tərəfindən dəstəklənir.

# AVROPA PARLAMENTİNİN DİREKTİVİNƏ DAİR SEMİNARLAR KEÇİRİLİB

***Dövlət Dəniz Administrasiyasında Beynəlxalq Dəniz Təşkilatının bir sıra konvensiyalarına, o cümlədən Avropa Parlamentinin direktivinə dair seminarlar keçirilib.***




Azərbaycan Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən bildirilib ki, Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasında dəstək" adlı Tvinninq layihəsi çərçivəsində "Dənizdə təhlükəli və zərərli maddələrin daşınması ilə əlaqədar dəymiş ziyana görə öhdəlik və təzminat üzrə Beynəlxalq Konvensiya", "Bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət haqqında Beynəlxalq Konvensiya", "Gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiq edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında Beynəlxalq Konvensiya", "Gəmilərin təhlükəsiz və ətraf mühitə uyğun şəkildə səmərəli utilizasiyasına dair Honq Konq Konvensiyası"na, o cümlədən 2005/35/EC saylı Avropa Parlamentinin direktivinə dair seminarlar keçirilib.

Adıçəkilən Tvinninq layihəsinin başlıca məqsədi Azərbaycanda dəniz üzgüçülüyünün təhlükəsizliyi və dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması ilə əlaqədar beynəlxalq konvensiyalarda nəzərdə tutulmuş məsuliyyət prosedurlarının Avropa İttifaqı qanunvericiliyi ilə əlaqəli şəkildə həyata keçirilməsindən və tətbiqi məsələlərində Dövlət Dəniz Administrasiyasının potensialını gücləndirməkdən ibarətdir.

Tvinninq layihəsi çərçivəsində ölkəmizə dəvət olunan ispaniyalı mütəxəssislər - professor J.L.Qabaldon, kapitan L.Fernandez və R.Pastor tərəfindən "Dənizdə təhlükəli və zərərli maddələrin daşınması ilə əlaqədar dəymiş ziyana görə öhdəlik və təzminat üzrə Beynəlxalq Konvensiya"ya dair anlayışlar, gəmi sahibinin mülki məsuliyyəti, məsuliyyətin və məcburi zəmanətin məhdudlaşdırılması, təhlükəli və zərərli maddələrin daşınması üzrə fondun yaradılması, təzminatı və əlaqədar işlər, fondun ianələri, təşkili və idarəedilməsi, tərəf dövlətin vəzifələri, iddialar və görülən tədbirlər, İspaniya dəniz hüququnda və Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində nəzərdə tutulan təhlükəli və zərərli maddələrdən dəyən ziyan üzrə məsuliyyət, həmçinin bunker yanacağı ilə çirklənmə nəticəsində vurulan zərərə görə mülki məsuliyyət, "Gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiq edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında Beynəlxalq Konvensiya"nın məqsədi, ümumi prinsipləri, sahil dövlətinin və gəmi sahibinin öhdəlikləri , mübahisələrin həlli, Avropa Parlamentinin 2005/35/EC saylı direktivi və digər məsələlər Dövlət Dəniz Administrasiyasının əməkdaşlarına ətraflı şəkildə izah edilib.

Seminarların sonunda əldə olunan biliklər bir daha nəzərdən keçirilib. Eyni zamanda, iştirakçılara sertifikatlar təqdim olunub.

# BALIQ VƏ DİGƏR SU BİORESURSLARI OVUNUN QAYDALARI HAQQINDA QƏRAR QƏBUL OLUNUB

***Azərbaycan Respublikası Nazirlər Kabineti "Balıq və digər su bioresursları ovunun Qaydaları"nın təsdiq edilməsi haqqında qərar qəbul edib.***

Nazirlər Kabinetindən AZƏRTAC-a verilən məlumata görə, qərarda Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilmiş balıq və digər su bioresurslarının ovuna icazə verilməsi halları və qaydası, ovlanması nəzərdə tutulan balıq və digər su bioresurslarının növləri və onların ovunun yol verilən ümumi miqdarı (kvotası), balıq və digər su bioresurslarının ovu üçün kvotaların balıqçılıq subyektləri arasında bölünmə qaydası müəyyən edilib.

Qərarda göstərilir ki, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, çaylar, göllər, su anbarları, su təchizatı kanalları və digər yerüstü su axınları, sututarlar, balıq və digər su bioresursları üçün süni yaradılmış məskunlaşma şəraiti və dövlətlərarası sərhədi müəyyən edən və ya sərhədi kəsib keçən yerüstü su obyektləri balıq və digər su bioresurslarının ovu üçün istifadə edilən su hövzələri balıqçılıq su obyektləridir. Yerüstü su obyektlərinin balıqçılıq təsərrüfatlarının ehtiyacları üçün istifadəyə verilməsi Azərbaycan Respublikasının su qanunvericiliyinə uyğun olaraq həyata keçirilir. Balıq və digər su bioresurslarının ovu sənaye, idman və həvəskar, akvakultura, elmi-tədqiqat, təhsil, maarifləndirmə və nəzarət, iqlimləşdirilmə məqsədilə həyata keçirilir. İdman və həvəskar ovu istisna olmaqla balıq və digər su bioresurslarının ovu balıqovlama bileti əsasında həyata keçirilir. Bərpa məqsədi ilə balıq və digər su bioresurslarının akvakultura üçün ovu, habelə elmi-tədqiqat, nəzarət, idman və həvəskar ovu istisna olmaqla balıq və digər su bioresurslarının ovu ödənişlidir.



Qərara əsasən, dövlətin balıq mühafizə sahəsində qanunla müəyyən edilmiş vəzifələrinin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi təbii balıqçılıq su obyektlərində balıq və digər su bioresurslarının ovunun tənzimlənməsinə nəzarəti və balıq və digər su bioresursları ovlanan balıqçılıq su obyektlərində gəmilərin, qayıqların və digər üzən nəqliyyat vasitələrinin saxlanılmasını, həmin nəqliyyat vasitələrinin, ov alətlərinin və əldə edilmiş məhsulların yoxlanılmasını həyata keçirir, qanunla müəyyən edilmiş hallarda dövlət mülkiyyətində olan təbii balıqçılıq su obyektlərini və ya onların müəyyən hissəsini (dövlət təbiət qoruqları istisna olmaqla) balıq və digər su bioresurslarının ovu üçün ayırır, balıqçılıq subyektlərinə verilmiş balıqovlama biletlərini, onların ov alətlərini, ovlanmış balıqları və onların qeydiyyatına dair sənədləri yoxlayır, ovlanmış balıq və digər su bioresurslarının ticarət dövriyyəsinə daxil edilməsi üçün onların mənşəyi, növü, miqdarı, ölçüləri, çəkisi barədə müəyyən olunan formada tipoqrafik üsulla hazırlanmış ciddi hesabat blankı olan qaimə verir və buna nəzarət edir, balıqçılıq subyektlərinə çatışmazlıqların aradan qaldırılması barədə yazılı göstərişlər verir, qayda pozuntusu nəticəsində balıq və digər su bioresurslarına ziyan vurulduğu hallarda, ziyanın ödənilməsi üçün hüquqi və fiziki şəxslərə qarşı iddia qaldırır. Balıq ovunun tənzimlənməsinə nəzarəti həyata keçirən nazirliyin əməkdaşları üzərində fərqləndirici nişanlar olan xüsusi geyimlə təmin edilir, habelə onlara qanunla müəyyən edilmiş hallarda və qaydada xidməti silah saxlamaq və gəzdirmək hüququ verilir. Balıq və digər su bioresurslarının ov qaydalarının pozulmasına, o cümlədən qanunsuz tutulmasına görə şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Qərarda qeyd edilib ki, Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilmiş balıq və digər su bioresurslarının (qaya balığı (kələmo), zərdəpər, xəzər qızılbalığı, dəniz sıfı, qızılxallı, qılıncbalıq, şirvan külməsi, xəzər şirbiti, poru) ovu, balıq və digər su bioresurslarının qorunması, onların populyasiyasının vəziyyətinə monitorinqin həyata keçirilməsi, onların süni artırılmasının və iqlimləşdirilməsinin həyata keçirilməsi məqsədi ilə həyata keçirilir. Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilmiş balıq və digər su bioresurslarının ov müddətləri və üsulları onların ovunun məqsədinə müvafiq olaraq müəyyən edilir, bu balıq və digər su bioresurslarının təbii populyasiyalarına və onların məskunlaşdığı mühitə zərər vurmamalıdır, istifadə olunan ov alətləri və üsullarının düzgün seçilməsi təmin edilməli, dəniz məməlilərinin diri şəkildə ovu zamanı isə onlara fiziki və psixi travmaların vurulması imkanları azaldılmalıdır. Qırmızı Kitaba daxil edilmiş balıq və digər su bioresurslarının hər bir ov faktı üzrə balıqovlama biletinin rekvizitləri, ovlanmış balıq və digər su bioresurslarının həcmi (miqdarı), ovun vaxtı, yeri, alətləri, ov həyata keçirən hüquqi (adı, yeri) və ya fiziki (soyadı, adı, atasının adı) şəxs göstərilməklə müəyyən olunmuş formada akt tərtib edilir. Akt ova cavabdeh olan şəxs, balıq və digər su bioresurslarının ovunu həyata keçirən şəxslər tərəfindən imza ilə, habelə balıqovlama biletini almış təşkilatın rəhbəri tərəfindən möhür və imza ilə təsdiq edilir, ovun nəticələri barədə aktlar balıq və digər su bioresurslarının ovunun həyata keçirildiyi tarixdən iki aydan gec olmayaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göndərilir.

Qərara görə, balıq və digər su bioresurslarının ovunun ümumi yol verilən miqdarı (kvotası) Azərbaycan Elmi-Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutu tərəfindən Azərbaycan Milli Elmlər Akademiyasının Zoologiya İnstitutunun rəyi nəzərə alınmaqla (daxili sularda), müəyyən edilmiş balıq və digər su bioresurslarının növlərinin məskunlaşdığı müvafiq balıqçılıq su obyektlərinin siyahısına daxil edilməklə hazırlanır və nəticəsi nazirliyə təqdim edilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi isə növbəti il üçün təbii balıqçılıq su obyektlərində balıq və digər su bioresurslarının ovunun ümumi yol verilən miqdarının kvotalar üzrə bölgüsünün hər il oktyabr ayının 5-dən gec olmayaraq, təsdiq edilməsi üçün müəyyən olunan formada təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir. Balıq və digər su bioresurslarının istifadəsi və mühafizəsi üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənən su obyektlərində balıq və digər su bioresurslarının ovu üçün kvotalar ilə əlaqədar balıq və digər su bioresurslarının ovunun ümumi yol verilən miqdarı barədə təkliflər dövlətimizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən müəyyən edilir.

# GƏMİ-BƏRƏNİN ƏSASLI TƏMİRİ BAŞA ÇATIB










***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə məxsus "Akademik Zərifə Əliyeva" gəmi-bərəsi təmir olunub. "Zığ" Gəmi Təmiri Zavodunda başlayan əsaslı təmir işləri qısa müddətdə və yüksək keyfiyyətlə həyata keçirilib.***

Belə ki, gəmi-bərənin sualtı və suüstü hissəsi, vaqon göyərtəsi, tüstü boruları təmizlənərək rənglənib. Sükan və köməkçi qurğusu, hərəkət mexanizmləri, kinqston qutuları, müxtəlif təyinatli su, yağ və yanacaq nasosları, köməkçi mühərrik təmir olunub. Baş mühərriklərin bəzi hissələri isə yenisi ilə əvəzlənib.

Üzən nəqliyyat vasitəsinin braşpil, lövbər qurğuları və zəncirləri də saz hala gətirilib. Gəminin mexaniki və elektrik hissələrində bütün zəruri yoxlama və təmir işləri görülüb.

Yaşayış və xidməti otaqları müasir tələblər səviyyəsində təmir edilən gəmi-bərədə görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyətini əks etdirən muzey də tamamilə yenilənib.

Dəniz sınaq yoxlamasından uğurla çıxan gəmi-bərə yenidən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda istismar ediləcək, Bakı-Türkmənbaşı-Bakı və Bakı-Aktau-Bakı xətlərində müntəzəm çıxacağı səfərlərdə dəmir yolu vaqonları daşıyacaq.

Məlumat üçün deyək ki, təmirdən sonra gəminin ilk səfəri Türkmənbaşı istiqamətində olub.

Gəmi-bərə Xorvatiyanın Ulyanik tərsanəsində tikilib. Uzunluğu 154,5 metr, eni 17,5 metr olan gəmi-bərə ən müasir naviqasiya sisteminə malikdir. Tam yükgötürmə qabiliyyəti 5985 ton olan gəmi-bərəyə eyni vaxtda 52 dəmir-yol vaqonu yükləmək mümkündür.

Qeyd edək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Xəzərdə yeganə bərə operatorudur. Hazırda Gəmiçiliyin donanmasında 13 gəmi-bərə, 2 Ro-Ro tipli gəmi var.

# ZORLA DİDƏRGİN SALINMIŞ İNSANLARIN SAYI ARTIR

UNHCR
The UN Refugee Agency



***BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (QAK) tərəfindən dərc edilmiş hesabata əsasən, bütün dünyada müharibə, zorakılıq və təqiblər indiyə qədər olduğundan daha çox sayda insanların zorla didərgin salınmasına gətirib çıxarıb.***

Təşkilatın didərginlik hallarına dair əsas illik icmalı olan BMT QAK-ın Qlobal tendensiyalara dair yeni hesabatında deyilir ki, 2016-cı ilin sonunda bütün dünyada zorla didərgin salınmış insanların sayı 65,6 milyon olub ki, bu da əvvəlki ildən təxminən 300 min nəfər çoxdur. Bu ümumi rəqəm bütün dünyada himayəyə ehtiyacı olan insanların sayının həddən artıq çox olduğunu göstərir.

Hesabatda bildirilir ki, 65,6 milyon rəqəmi üç mühüm komponentdən ibarətdir. Birincisi qaçqınların sayıdır. Bu say 22,5 milyon təşkil edir ki, bu da indiyədək müşahidə edilən saydan artıqdır. Bunlardan 17,2 milyonu BMT QAK-ın aidiyyətindədir, qalanları isə digər BMT qurumu olan Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üçün BMT-nin Yaxın Şərq Agentliyi (UNRWA) tərəfindən qeydiyyata alınmış fələstinli qaçqınlardır. Suriya münaqişəsi dünyada ən çox (5,5 milyon) qaçqın doğuran münaqişə olaraq qalır. Bununla belə, 2016-cı ildə ən böyük yeni amil Cənubi Sudan olub. Orada həmin ilin iyulunda sülh səylərinin acınacaqlı uğursuzluğu ilin sonu üçün 739 min 900 insanın ölkəni tərk etməsinə şərait yaradıb (bu gün onların sayı 1,87 milyon nəfərdir).

İkincisi insanların öz ölkələri daxilində köçkün düşməsi hallarıdır ki, onların sayı 2016-cı ilin sonunda 40,3 milyon olub. Müqayisə üçün qeyd olunmalıdır ki, ondan əvvəlki ildə bu say 40,8 milyon olub. Ən çoxsaylı məcburi köçkünlük situasiyaları Suriyada, İraqda və hələ də ölkə daxilində çoxlu sayda məcburi köçkünlük hallarının baş verdiyi Kolumbiyadadır. Bununla belə, məcburi köçkünlük problemi ümumdünya problemidir və qlobal səviyyədə zorla didərgin salınma hallarının ümumilikdə təxminən üçdə ikisini əhatə edir.

Üçüncüsü sığınacaq axtaranlardır. Bunlar ölkələrini tərk etmiş və qaçqın qismində beynəlxalq himayə axtaran insanlardır. 2016-cı ilin sonunda sığınacaq axtaran insanların sayı qlobal səviyyədə 2,8 milyon olub. Bu, ümumən qlobal səviyyədə müharibələrin və təqiblərin insanlar arasında çoxsaylı itkilər bahasına başa gəlməsi deməkdir. 65,6 milyon nəfər o deməkdir ki, bu gün bütün dünyada orta hesabla hər 113 nəfərdən biri didərgin düşmüş şəxsdir. Bu isə dünyada əhalisinin sayına görə 21-ci olan Birləşmiş Krallığın əhalisinin sayından çoxdur. "Bu, istənilən baxımdan qəbuledilməz rəqəmdir və böhranların qarşısının alınmasında və həll edilməsində həmrəyliyin və ümumi məqsədin olmasına, habelə həll yolları axtarıldığı müddətdə dünyadakı qaçqınların, məcburi köçkünlərin və sığınacaq axtaranların lazımi qaydada müdafiə və himayə edilməsini birlikdə təmin etməyə həmişəkindən daha çox ehtiyac olmasından xəbər verir", – deyə BMT-nin qaçqınlar üzrə ali komissarı Filippo Qrandi bildirib. O deyib: "Biz bu insanlar üçün daha yaxşı çalışmalıyıq. Münaqişə içərisində olan dünyadan qorxu deyil, qətiyyət və cəsarət tələb olunur".

Hesabatda gəlinən əsas qənaətlərdən biri ondan ibarətdir ki, konkret olaraq yeni didərginlik hallarının səviyyəsi çox yüksək olaraq qalır. Qlobal miqyasda zorla didərgin salınmış 65,6 milyon nəfərdən 10,3 milyonu 2016-cı ildə didərgin düşənlərdir. Onların təxminən üçdəikisi (6,9 milyonu) öz ölkələri daxilində köç edənlər, yəni, məcburi köçkünlərdir. Bu, hər üç saniyədə bir nəfərin didərginə çevrilməsi deməkdir. Bu isə bu cümləni oxumağa sərf edilən vaxtdan da azdır.

Eyni zamanda, qaçqınların və məcburi köçkünlərin evlərinə qayıdışı, üçüncü ölkələrdə məskunlaşdırılma kimi digər həll yolları ilə birlikdə, o deməkdir ki, 2016-cı ildə bəzilərinin vəziyyətinin yaxşılaşması üçün perspektiv yaranıb. Təxminən 37 ölkə ümumilikdə 189 min 300 qaçqını məskunlaşdırmaq üçün qəbul edib. Digər qaçqınların təxminən yarım milyonu doğma ölkələrinə, təxminən 6,5 milyon məcburi köçkün isə doğma ərazilərinə qayıda biliblər. Hərçənd ki, onların çoxu üçün bu heç də ideal şəraitdə baş verməyib və onlar qeyri-müəyyən perspektivlərlə qarşılaşıblar.

Hesabatda qeyd edilir ki, 2016-cı ilin sonu üçün bütün dünyada ən çox sayda (84 faiz) qaçqın aşağı və ya orta gəlirli ölkələrdə olub. Onların hər üç nəfərindən biri (4,9 milyon nəfər) ən az inkişaf etmiş ölkələr tərəfindən qəbul edilib. Bu nəhəng disbalans bir neçə məqamı, o cümlədən qaçqınların qəbulu məsələsində hələ də beynəlxalq səviyyədə konsensusun olmadığını və yoxsul ölkələrin çoxunun münaqişə regionlarına yaxın olduğunu özündə əks etdirir. Bu, həm də qaçqınlara və didərgin düşmüş digər insanlara dəstək olan ölkələrin və icmaların güclü resurslara və dəstəyə ehtiyacları olduğunu əyani şəkildə nümayiş etdirir. Bunların olmaması qeyri-sabitlik yarada, insanların həyatlarını xilas edən humanitar işlər üçün mənfi nəticələr doğura, yaxud ikinci didərginlik hallarına gətirib çıxara bilər.

Dünyadakı qaçqınların yarısını təşkil edən uşaqlar qeyri-mütənasib dərəcədə iztirab yükü daşımaqda davam edirlər. Bunun əsas səbəbi onların daha çox müdafiəsiz vəziyyətdə olmalarıdır. Faciəli haldır ki, təkbaşına yola çıxan və ya valideynlərindən ayrı düşən uşaqlardan sığınacaq üçün 75 min müraciət qəbul edilib. Hətta bu rəqəm də güman ki, həqiqi rəqəmdən azdır.

BMT QAK-ın hesablamalarına görə, 2016-cı ilin sonunda azı 10 milyon insan vətəndaşlığa malik olmayıb və ya vətəndaşsızlıq riski altında olub. Lakin hökumətlər tərəfindən qeydə alınan və BMT QAK-a təqdim edilən məlumatlarda 75 ölkədə vətəndaşlığa malik olmayan insanların sayı 3,2 milyon nəfərlə məhdudlaşır.

BMT QAK "Qlobal tendensiyalar" hesabatını öz məlumatları, habelə tərəfdaşı olan Məcburi Köçkünlük Hallarının Monitorinqi Mərkəzindən və hökumətlərdən aldığı məlumatlar əsasında hər il təqdim edir.

# XƏZƏRDƏ AZƏRBAYCANIN XÜSUSİ GƏMİLƏRİ ÜZƏCƏK



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və Odessa Dəniz Mühəndisliyi Bürosu birgə əməkdaşlığı genişləndirir. Əməkdaşlıq nəticəsində yeni quru yük, yanğınsöndürən, kran gəmilərinin inşası planlaşdırılır.***

Bu barədə Odessa Dəniz Mühəndisliyi Bürosunun direktoru Gennadi Yeqorov məlumat verib. Bildirib ki, həmin gəmilərin texniki layihələrinin hazırlanması işləri gedir.

Yeqorovun sözlərinə görə, sözügedən gəmilər müasir tələblərə tam cavab verəcək və Xəzər üçün çox önəmli su nəqliyyatı vasitələri olacaq.

"Məqsədimiz təkcə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanmasını yeniləmək deyil. Biz əminik ki, əməkdaşlığımız bu sahədə azərbaycanlı mütəxəssislərin hazırlanması işinə də töhfə verəcək. Çünki, gəmilərin həm layihələndirilməsi, həm də inşası prosesində yerli mühəndislərin yaxından iştirakı tam təmin olunacaq",- deyə G.Yeqorov qeyd edib.

Büro direktoru Gəmiçiliklə əməkdaşlığın uğurla davam etdiyini də vurğulayıb: "Biz "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ilə əməkdaşlığımızdan məmnunuq. Xüsusi ilə qeyd etmək istəyirəm ki, əməkdaşlığımızın inkişafında AXDG-nin rəhbərliyinin böyük rolu var."

Xatırladaq ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Odessa Dəniz Mühəndisliyi Bürosunun hazırladığı təklif əsasında 2016-cı ilin oktyabrında ilk gəmi sifarişini yerləşdirib. Söhbət Bakı Gəmiqayırma Zavodunda tikintisi davam edən 2 ədəd unikal Ro-Pax/Bərə tipli gəmidən gedir. Həmin gəmilərin ilk polad lövhələrinin kəsimi martda baş tutub.

# TRANZİT SAHƏSİNDƏ AZƏRBAYCANLA ƏMƏKDAŞLIĞI MÖHKƏMLƏNDİRMƏKDƏ MARAQLIDIR

***Latviyanın rabitə naziri Uldis Auqulis Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə ilə görüş zamanı ölkələrimizin tranzit sahəsində əməkdaşlığının möhkəmləndirilməsi imkanlarını müzakirə edib.***




U.Auqulis qeyd edib ki, Latviya üç mühüm istiqamətdə - Avrasiya nəqliyyat dəhlizinin inkişafı, aviasiya və rabitə sahələrində Azərbaycan ilə əməkdaşlığı möhkənləndirmək üçün potensial görür.

Latviya son illərdə Avrasiya dəmir yolu daşımalarının inkişafında fəal iştirak edib. Ötən il Latviyadan Çinə konteyner qatarı təşkil edilib, bu il isə Latviyadan Çinə daşımalar başlanıb.

Nazir deyib: "Hesab edirəm ki, biz dəmir yolu xətlərini inkişaf etdirərək, bu konteksdə Azərbaycan ilə əməkdaşlığımızı əhəmiyyətli dərəcədə möhkəmləndirə bilərik, çünki həm "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi, həm də Yeni İpək Yolunun tərkib hissəsi olan Avropa-Qafqaz-Asiya dəhlizi Azərbaycandan keçir. "Şimal-Cənub" dəhlizinin inkişafı isə İran, Hindistan və Baltik ölkələri arasında dəmir yolu nəqliyyatını nəzərdə tutur".

U.Auqulis aviasiya sahəsində əməkdaşlıqdan danışarkən məmnunluq hissi ilə bildirib ki, Latviyanın "AirBaltic" aviaşirkəti yay mövsümündə həftədə iki dəfə Bakıya reyslər həyata keçirir. Latviya Azərbaycan ilə əməkdaşlığa, sərnişin və yükdaşımalarını artırmaq üçün yeni qərarlar və imkanlar axtarmağa hazırdır.

***Nigar Cəfərli***

# TBNM-İN İMKANLARI VƏ PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNUB

***Astanada "Nəqliyyat infrastrukturunun inkişafı, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə daşımaların səmərəliliyinin və rəqabətə davamlılığının artırılması" mövzusunda "dəyirmi masa" keçirilib.***

"Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasının təşkil etdiyi müzakirələrdə Qazaxıstan, Azərbaycan, Gürcüstan, Ukrayna, Çin, Türkiyə, Polşa, Latviya, Litva, Rumıniya, Bolqarıstan və Moldovanın 80-dən çox gəmiçilik, dəmir yolu, liman administrasiyası, nəqliyyat assosiasiyası, nəqliyyat-logistik şirkətlərinin rəhbərləri və nümayəndələri iştirak ediblər.

"Dəyirmi masa"da qazaxıstanlı və xarici mütəxəssislər mütəmadi konteyner servisinin inkişafını, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə daşımaların imkanlarını və perspektivlərini, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin icra vəziyyətini, eləcə də liman infrastrukturunun genişləndirilməsini müzakirə ediblər.

"Arkas Logistics Services Group" şirkətinin vitse-prezidenti M.Çiper yüklərin TBNM vasitəsilə, intermodal nəqliyyat və liman əlaqələrindən istifadə etməklə, Türkiyəyə daşınma imkanlarını yüksək qiymətləndirib.

"Dəyirmi masa"nın yekunlarına dair "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasıyla Çinin Nəqliyyat və Kommunikasiya Assosiasiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

Həmin gün "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası təsisçilərinin ümumi yığıncağı keçirilib. Yığıncaq zamanı TBNM üzrə əvvəlki tariflərə yenidən baxılması və yeni tariflərin (o cümlədən, Ukrayna, Qara Dəniz limanlarının istifadəsi nəzərə alınmaqla) təsdiqlənməsi məsələləri müzakirə olunub.

Ümumi yığıncağın qərarı ilə Assosiasiyaya "PKP Genişizli metallurgik yol" MMC (Polşa) yeni assosiativ üzv kimi qəbul edilib.

# "QEYRİ-KAFİ" YOLUN SONUNCU METRİ KEÇƏN İLİN İYUN AYINDA LƏĞV EDİLİB




***Bakı metrosunda "kafi" qiymətli yollar qalmayıb.***

Bu barədə "Bakı Metropoliteni" QSC-nin mətbuat xidməti Nəsimi Paşayev deyib.

O bildirib ki, Bakı metropolitenində dəmir yollarının texniki cəhətdən ən yüksək standartlara cavab verməsi, təhlükəsizliyin müasir tələblər səviyyəsinə çatdırılması istiqamətində əldə olunan uğurlar sırasına daha biri də əlavə olunub. Metropoliten tarixində ilk dəfə texniki istismar qaydalarına uyğun qiymətləndirmə nəticəsində "kafi" qiymətli yollar daha qalmayıb.

N.Paşayevin sözlərinə görə, bu barədə dəqiq məlumatı texniki sənədlər verir. 2015-ci ilin aprel ayında istismara verilmiş metropoliten infrastrukturunun çoxfunksiyalı müasir diaqnostika kompleksinin həmin ilin may ayında qeydə aldığı göstəricilərinə görə, yeraltı dəmir yolların cəmi 430 metr "əla", 372 metr "yaxşı", 21,5 kilometr "kafi" idisə, bu gün vəziyyət tam fərqlidir. Bu ilin may ayının 20-də diaqnostika kompleksinin qeydə aldığı göstəricilərə görə, Bakı metropoliteninin 72 kilometrdən bir qədər artıq yollarının 62,720 metri "əla", 5,105 metri "yaxşı" qiymətə layiq bilinib. Qeyd edək ki, yolun müəyyən sahəsinin keyfiyyəti həmin sahədə aşkar edilən kənarlaşmaların (normaya uyğun olmayan halların) sayının yolun uzunluğuna olan nisbəti ilə müəyyən edilir. Bu nisbət nə qədər kiçik olarsa, yolun vəziyyəti bir o qədər yüksək qiymətləndirilir.

N.Paşayev xatırladıb ki, metropolitenin yol təsərrüfatının işçiləri "qeyri-kafi" yolun sonuncu metrini 2016-cı ilin iyun ayında ləğv ediblər.

# "ARALIN QURUMASI BİZİM HAMIMIZ ÜÇÜN DƏRS OLMALIDIR"



***Birləşmiş Millətlər Təşkilatının baş katibi Antonio Quterreş Özbəkistanda səfərdə olub.***

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Antonio Quterrişlə Səmərqənddə görüşüb.

Danışıqlarda Özbəkistanla BMT arasında əlaqələrin inkişafı, Aralın fəlakət zonasına çevrilməsi və digər məsələlər müzakirə edilib.

Antonio Quterriş Özbəkistanın birinci Prezidenti İslam Kərimovun məzarını da ziyarət edib.

Sonra BMT-nin baş katibi Qaraqalpaqstana gedib və vertolyotla qurumaqda olan Aral dənizi akvatoriyasını və ətraf əraziləri seyr edib.

BMT-nin baş katibi bununla əlaqədar bildirib ki, 1960-cı ildə böyüklüyünə görə dünyada dördüncü olan Aral gölü (Məhz böyük olduğuna görə dəniz deyilir) qurumaqda davam edir və bu məndə şok effekti yaratdı. Elə bilirəm ki, Aralın quruması zəmanəmizin ən böyük ekoloji fəlakətidir. O bildirib ki, bu ekoloji fəlakət regionda su ehtiyatlarından səmərəli istifadə edilməməsi səbəbindən yaranıb və bu bizim hamımız üçün dərs olmalıdır.

Xatırladırıq ki, son 40 ildə Aral dənizində suyun həcmi beş dəfə azalıb, səthi 18 metr aşağı düşüb, duzluluq artıb. Əvvəl dənizin sahili Muynak qəsəbəsinin yaxınlığında olan Aral indi təxminən 150 kilometr çəkilib, balıq yoxa çıxıb.

1993-cü ilin yanvar ayında Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Tacikistan dövlətləri Aralın Xilası üzrə Beynəlxalq Fond yaradıblar. 2008-ci ilin dekabrından bu fondun BMT-də müşahidəçi statusu var.

***Qulu Kəngərli***

# TƏBİİ SU HÖVZƏLƏRİNƏ MİLYONLARLA BALIQ KÖRPƏSİ BURAXILACAQ

***Cari ilin ilk altı ayı balıq növlərinin təbii su hövzələrinə buraxılacaq ölçülərə çatdırılmasından ötrü balıqartırma mövsümünə hazırlıq dövrü sayılır. 2017-ci ilin sonunadək 445 milyon müxtəlif növ balıq körpələrinin respublikanın təbii su hövzələrinə buraxılması nəzərdə tutulub. Bunların 176 minini qızılbalıq, 20.1 milyonunu nərəkimilər, 425.5 milyonunu isə çəkikimilər təşkil edir.***

Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamentinin baş müfəttişi İsmayıl Yunusov AZƏRTAC-a məxsusi müsahibəsində məlumat verib.

İ.Yunusov bildirib ki, ötən il 406.5 milyon balıq körpəsi su hövzələrinə buraxılıb ki, bunların da 7.6 milyonu nərəcinsli, 200 mini qızılbalıq, 396 milyonu isə çəkikimilərə aid olub.

# AZƏRBAYCAN ƏHALİSİNİN SAYI 9836695 NƏFƏRƏ ÇATIB

***Azərbaycan əhalisinin sayı ilin əvvəlindən 26714 nəfər və ya 0,3 faiz artaraq may ayının 1-nə 9836695 nəfərə çatıb.***



Dövlət Statistika Komitəsindən bildiriblər ki, əhalinin ümumi sayının 53,0 faizini şəhər, 47,0 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Əhalinin bir kvadratkilometrə düşən sıxlığı 114 nəfər olub. Hazırda hər 1000 kişiyə 1006 qadın düşür.

Bu ilin ilk dörd ayı ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkə üzrə 46996 doğulan körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 14,7 təşkil edib. Doğulan körpələrin 52,8 faizi oğlan, 47,2 faizi isə qız uşaqlarından ibarət olub. Körpələrdən 836-sı əkiz, 18-i üçəm doğulanlardır.

Cari ilin yanvar-aprel aylarında ölkədə 20684 ölüm halı qeydə alınıb və ölüm səviyyəsi əhalinin hər 1000 nəfərinə 6,5 təşkil olub.

Dörd ay ərzində qeydiyyat şöbələri tərəfindən 18229 nikah və 4896 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,7, boşanmaların sayı isə 1,5 olub. Cari ilin yanvar-aprel ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün 850 nəfər Azərbaycana gələn, 448 nəfər isə Azərbaycandan gedən qeydə alınaraq miqrasiya saldosu müsbət 402 nəfər təşkil edib.

# "BİZİM OKEANLARIMIZ, BİZİM GƏLƏCƏYİMİZ"DİR



***8 İyun - Ümumdünya Okeanlar Günü idi. Bu təqvimin qeyd edilməsi 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində BMT-nin "Ətraf mühit və inkişaf" konfransında elan edilib.***

Yer kürəsinin 70 faizini okeanlar təşkil edir. Planetimizin 361 milyon kvadratkilometr sahəsi dörd okean arasında bölünüb – Sakit, Atlantik, Hind və Şimal Buzlu.

Nəfəs aldığımız oksigenin çoxu okeanlar tərəfindən istehsal edilir, karbon-dioksid emissiyaları absorbsiya olunur, canlılar ərzaq və qidalandırıcıların əksər hissəsini buradan alır, iqlimi tənzimləyir, turizm, balıqçılıq, iqtisadiyyat üçün önəmli rol oynayır.

Təəssüf ki, antropogen təsirlər, brakonyerlik, qeyri-qanuni balıqçılıq, su hövzələrinin çirkləndirilməsi və asidifikasiyası, iqlim dəyişkənliyi dünyanın okean və dənizləri üçün ciddi təhlükəyə səbəb olub. Bu günün də qeyd edilməsində əsas məqsəd bəşəriyyətin həyatında önəmli rol oynayan nəhəng su hövzələrinin mühafizəsinə bütün diqqətləri yönəltməkdir.

Həmin bayram bir çox Avropa ölkələrində (Belçika, Böyük Britaniya, Almaniya, Hollandiya, İrlandiya, İspaniya, İtaliya, Norveç, Portuqaliya, Fransa), Cənub-Şərqi Asiya dövlətlərində (Vyetnam, İndoneziya, Sinqapur, Filippin), Cənubi Asiyada (Hindistan, Şri-Lanka), Uzaq Şərqdə (Çin, Yaponiya), Latın Amerika ölkələrində (Argentina, Ekvador, Kuba), Avstraliya və Afrikada (Əlcəzair, Qabon, Mərakeş, Mavritaniya, Keniya, Kamerun), həmçinin Şimali-Amerika ölkələrində (Kanada, ABŞ, Meksika) qeyd edilir.

Ümumdünya Okeanlar Gününün builki mövzusu "Bizim okeanlarımız, bizim gələcəyimiz"dir.



## 1828 MİQRANT DƏNİZİ KEÇMƏYƏ CƏHD GÖSTƏRƏRKƏN SULARIN QURBANINA ÇEVRİLİB

***Dənizdə xilasetmə xidməti iki gün ərzində Aralıq dənizində İspaniya sahillərinə yetişməyə cəhd göstərən 300-dən çox qeyri-leqal miqrant aşkarlayıb.***

RİA Novosti informasiya agentliyi xəbər verir ki, təkcə cümə axşamı günü Andalusiya (İspaniyanın cənubunda yerləşən muxtar qurum) sahillərində içərisində 190 mühacirin olduğu yeddi qayıq aşkarlanıb. Cümə gününün birinci yarısınadək isə 130 miqrantı daşıyan daha üç gəmi tapılıb.

Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına əsasən, bu ilin əvvəlindən bəri Aralıq dənizi vasitəsilə Avropaya 77 mindən çox miqrant və qaçqın gəlib. 1828 nəfər dənizi keçməyə cəhd göstərərkən həlak olub.

## QEYRİ-LEQAL BALIQ OVUNA QARŞI BİRGƏ TƏLİMLƏR KEÇİRİBLƏR

***Yaponiyanın Sahil Mühafizəsi Xidməti Vyetnam Dəniz Polisi ilə birlikdə ilk dəfə Cənubi Çin dənizində qeyri-leqal balıq ovuna qarşı birgə təlimlər keçiriblər.***

Təlimlər Vyetnam tərəfinin xahişi ilə iyunun 16-da Mərkəzi Vyetnamın Dananq şəhərinin sahillərində keçirilib.

Cənub-şərqi Asiyanın bu hissəsində, Vyetnama məxsus sularda Çin balıqçı gəmiləri və eyni zamanda, başqa ölkələrdən olan gəmilər qeyri-leqal balıq ovu ilə məşğuldurlar.

Təlimlərdə Yaponiyanın "Etiqo" patrul gəmisi və iki il bundan əvvəl Yaponiyanın Vyetnama bağışladığı patrul gəmiləri iştirak ediblər.

Yaponiyanın rəsmi nümayəndələri vyetnamlı həmkarlarına bildiriblər ki, onlar qeyri-qanuni balıq ovu ilə məşğul olanları saxlamazdan əvvəl sübut üçün onların fotolarını və ya video görüntülərini çəkməlidirlər.




# KONTEYNER DAŞIYAN GƏMİ ESMİNESLƏ TOQQUŞUB

***İyunun 17-də gecə Yaponiya sahillərində ABŞ Hərbi-Dəniz Qüvvələrinə məxsus "USS Fitzgerald" esminesi ilə toqquşan Filippin bayrağı altında üzən "ACX Crystal" konteyner gəmisinin 20 nəfər heyət üzvündən heç biri xəsarət almayıb.***



Bu barədə Kyodo agentliyi həmin gəmini icarəyə götürmüş Yaponiyanın "Nippon Yusen" şirkətinə istinadla məlumat yayıb.

Esmines və konteyner daşıyan gəminin İrozaki burnundan təqribən 20 kilometr məsafədə, İzu yarımadasının cənubda toqquşduğu bildirilir. "Fitzgerald" esminesi hadisə yerindən 100 kilometr məsafədə yerləşən Yokosuka hərbi bazasının qeydiyyatındadır. Axtarış-xilasetmə əməliyyatı zamanı üç dənizçinin cəsədi esminesin su basmış hissəsində tapılıb və tanınmaq üçün Yokosuka hərbi hospitalına göndərilib. Bundan başqa, qəza nəticəsində esminesin dörd dənizçisinin itkin düşdüyü və üç nəfərin xəsarət aldığı bildirilir. ABŞ Silahlı Qüvvələrinin Sakit okean komandanlığının rəsmi nümayəndəsinin bildirdiyinə görə, xəsarət alanlardan biri esminesin komandiri Brays Benson Yokosukadakı hərbi hospitala yerləşdirilib.

Yaponiya Sahil Mühafizəsinin beş kateri və bir aviasiya texnikası hadisə yerində axtarış-xilasetmə əməliyyatı aparır və qəzanın baş vermə səbəblərini araşdırır.

NHK telekanalına məxsus helikopterin çəkdiyi kadrlardan esminesin sağ göyərtəsinin ciddi xəsarət aldığı aydın görünür. Konteyner daşıyan gəminin isə sol burun hissəsi zədələnib. Hadisənin necə baş verdiyi araşdırılır.

ABŞ-a məxsus esminesin uzunluğu 154 metr, su tutumu 8315 tondur. Daha böyük olan konteyner gəmisinin uzunluğu isə 222,6 metr, su tutumu 29 min tondur.

Hadisənin baş verdiyi ərazi gəmilərin sıx hərəkət etdiyi rayondur. Hər gün buradan Tokio körfəzinə gedən təqribən 400 yük gəmisi keçir. Verilən məlumata görə, konteyner gəmisi Tokiodan Naqoyaya gedirmiş.

Göyərtəsində "Aegis" müşahidə və izləmə sistemi olan "USS Fitzgerald" esminesi isə bu yaxınlarda Yapon dənizində keçirilən təlimlərdən qayıdırmış. KİV-lərdə yer alan məlumata görə, esminesin silah potensialında "Tomahawk" qanadlı raketləri də var.

***Vüqar Ağayev***

# BALIQÇI GƏMİSİNİN ATƏŞƏ TUTULMASI NƏTİCƏSİNDƏ BİR MÜLKİ ŞƏXS HƏLAK OLUB

***İrana məxsus balıqçı gəmisi Fars körfəzində Səudiyyə Ərəbistanının sərhəd mühafizəçiləri tərəfindən atəşə tutulub.***

Bu barədə məlumat verən İranın Xarici İşlər Nazirliyinin nümayəndəsi Bəhram Qasemi bildirib ki, göyərtəsində heç bir silah olmayan balıqçı gəmisinin atəşə tutulması nəticəsində bir nəfər mülki şəxs həlak olub.

B.Qasemi qeyd edib ki, Səudiyyə Ərəbistanı sərhəd mühafizəsi gəminin su sərhədini pozduğunu bildirib. İranın bu ölkədə səfirliyinin olmadığına görə məlumatı dəqiqləşdirmək çətindir. Lakin buna baxmayaraq İran ciddi araşdırma apararaq balıqçı gəmisinin Səudiyyə Ərəbistanının su sərhədini pozmasını dəqiqləşdirəcək.



İranın Xarici İşlər Nazirliyinin sərhəd məsələləri üzrə departamentinin rəhbəri Məcid Ağababayi isə bildirib ki, daha bir balıqçı gəmisinin taleyi isə məlum deyil. Onun sözlərinə görə, bir deyil, iki gəmi atəşə tutulub.

Hazırda insidentlə bağlı araşdırma aparılır. Yerli mətbuat isə bu faktın təxribat olduğunu iddia edir.

***Rabil Kətanov***



## DƏNİZLƏRDƏ PLASTİK ZİBİLLƏR BALIQLARDAN ÇOX OLACAQ

***BMT-nin Nyu-York şəhərindəki baş qərargahında "Dünya Okeanı Konfransı" keçirilib.***

Anadolu informasiya agentliyi xəbər verir ki, konfransın ilk iclasına BMT-nin Baş katibi Antonio Quterreşlə birgə təxminən 200 ölkənin dövlət və hökumət başçıları və ətraf mühit fəalları qatılıb.

Quterreş okeanları qorumaq və onlardan səmərəli istifadə etməyin həyatın özünü qorumaq qədər önəmli olduğunu bildirib. Onun sözlərinə görə, əgər okeanlar qorunmasa 2050-ci ilə qədər çevrəyə atılan plastik zibillər balıqların sayından çox olacaq.

Boliviyanın dövlət başçısı Evo Morales və iclasın bir çox iştirakçısı ABŞ-ın "Paris İqlim Sazişindən" çıxacağını bildirən Prezident Donald Trampın qərarını tənqid edib.



## ÖZÜ İDARƏOLUNAN YÜK GƏMİLƏRİ ÜZƏRİNDƏ İŞLƏYİRLƏR

***Yaponiyanın "Mitsui OSK Lines", "Nippon Yusen" və "Japan Marine United" gəmiqayırma kompaniyaları özü idarəolunan yük gəmilərinin yaradılması üzrə miqyaslı layihə üzərində işlədiklərini elan ediblər.***

İnterfax informasiya agentliyi xəbər verir ki, həmin gəmidə quraşdırılan süni intellektlə təchiz olunmuş avadanlıqlar ən qısa, rahat və təhlükəsiz marşrutu seçməyə imkan verəcək. Süni intellekt, həmçinin dəniz qəzalarından yayınmağa da kömək edəcək.

Layihənin müəllifləri bu gəmiləri 2025-ci ildə istismara buraxmağı planlaşdırır.

Ümumilikdə 250 ədəd özü idarəolunan gəminin tikilməsi nəzərdə tutulur. Layihə yüz milyonlarla dollar həcmində qiymətləndirilir.

Özü idarəolunan ilk gəmiləri yenə də azsaylı texniki heyət müşayiət edəcək. Lakin gələcəkdə belə gəmilər tam avtonom rejimdə işləyəcək.

Qeyd edək ki, "Rolls-Royce" kompaniyası da 2016-cı ildə özü idarəolunan gəmilərin yaradılması barədə planlarını elan etmişdi. Kompaniyanın gəmiləri 2020-ci ildə dəniz marşrutlarında fəaliyyət göstərməlidir.

# BUZLAQLARIN 2100-CÜ İLƏ QƏDƏR ƏRİMƏSİ BARƏDƏ XƏBƏRDARLIQLAR HƏQİQƏT OLSA…

***Antarktida buzlaqlarının 2100-cü ilə qədər əriməsi barədə xəbərdarlıqlar həqiqətdirsə, biz imperator pinqvinlərini həmişəlik itirə bilərik.***



“ecoportal” saytı xəbər verir ki, Antarktida buzlaqlarının əriməsi imperator pinqvinlərini çoxalma və qidalanma məkanlarından məhrum edərək, onların mövcudluğunu təhlükə altına qoya bilər.

Yeni proqnoz göstərir ki, əsrin sonuna doğru, yəni cəmi üç nəsil sonra imperator pinqvinlərinin populyasiyası 99 faiz azala bilər. ABŞ-ın Okeanoqrafiya İnstitutunun mütəxəssisi, bioloq Stefani Jenuvriyer hesab edir ki, imperator pinqvinləri nəsli kəsilməkdə olan növlər haqqında Qanunun himayəsi ilə qorunmalıdır.

İmperator pinqvinləri ilə dəniz buzlağı arasında əlaqə çox kövrəkdir. Dəniz buzlağı azalarsa, quşlar çoxalma və ov yerlərindən məhrum olacaq. Buzun həcminin həddindən çox olması yaşlı fərdləri sürəkli ov axtarmağa vadar edəcək, quş balaları da lazımi qədər qida ilə təmin olunmayacaq.

Alimlər pinqvinlərin optimal buzlaq şəraiti olan yerlərə miqrasiya etmək bacarığını öyrəniblər. Onlar pinqvinlərin davranışını, məskunlaşmanın məsafəsini və dəniz buzlağının həcmini nəzərə alaraq, bu quşların 54 populyasiyasının məskunlaşma modellərini yaradıblar.

Modelləşdirməyə görə, populyasiyalar 2036-cı ilə qədər öz sayını qoruyub saxlayacaq. Sonra pinqvinləri on il sürən “ekoloji qurtuluş” dövrü gözləyir. Amma pinqvinlər necə məskunlaşırsa-məskunlaşsın, 2046-cı ildən başlayaraq populyasiyalar yenə də azalmağa başlayacaq. Bütün miqrasiya ssenariləri göstərir ki, 2100-cü ilə qədər pinqvinlərin sayı 40-99 faiz azalacaq.

# PLANETİN ƏHALİSİNİN TƏXMİNƏN YARISI ÖLDÜRÜCÜ İSTİ İLƏ QARŞILAŞACAQ

***Amerika və Britaniya alimləri bildiriblər ki, XXI əsrin son rübündə Yer üzü ölüm təhlükəsi yaradan istiliklə qarşılaşacaq. Müvafiq tədqiqata dair material “Nature Climate Change” jurnalında dərc edilib.***

“Lenta.ru” saytı xəbər verir ki, parnik qazları tullantısı azaldılmayacağı halda alimlərin proqnozu özünü doğrulda bilər. Planet əhalisinin təxminən yarısı öldürücü isti ilə qarşılaşacaq.



Tropik rayonlarda hava şəraiti daha çətin olacaq.

Alimlərin fikrincə, iqlim o dərəcədə tez dəyişir ki, insanlar çətin ki, yeni şəraitə uyğunlaşa bilsinlər. Hazırda planet əhalisinin üçdəbiri istidən əziyyət çəkir.

Mütəxəssislər 1980-ci ildən istilər səbəbindən insan ölümü statistikasına həsr edilən 1,9 mindən çox tədqiqatı araşdırdıqdan sonra bu nəticəyə gəliblər. 2010-cu ildə Moskvada 10,8 mindən çox, 2003-cü ildə Parisdə 4,9 min, 1995-ci ildə Çikaqoda 740 nəfər isti havadan ölüb.

# SU PROSEDURLARI

***Qədim Romada xəstəliklərdən qurtulmaq üçün termal su vannaları qəbul edilirdi və həmin sağlamlaşdırıcı metoda sonralar SPA–sudan gələn sağlamlıq adı verilib.***

SPA prosedurları bürünmə, hidroterapiya (su prosedurları) və termiki prosedur kimi üç qrupa bölünür.

Bürünmə bədənə müalicəvi və profilaktik qarışıqların yaxılması ilə həyata keçirilən prosedurdur. Dəniz məhsullarından istifadə etməklə həyata keçirilən prosedur talassoterapiya adlanır. Bürünmə proseduru zamanı yosun, müalicəvi palçıq, gil, yağ, şokolad və digər məhsullardan istifadə olunur.

Həyata keçirilmə mexanizminə görə həm isti, həm də soyuq bürünmə var. İsti bürünmə damarları genişləndirərək qan dövranını yaxşılaşdırır, genişlənmiş dəri məsamələri vasitəsilə toksin və şlaklar orqanizmdən xaric olur. Soyuq bürünmədə isə damar mənfəzi daralır, limfa və qan toksinləri daxili ifrazat orqanlarına daşıyaraq orqanizmdən çıxarır. Onu yorğunluq, ödem, venaların sklerozlaşmasından sonrakı bərpa prosesində tətbiq edirlər. Həmin prosedur zamanı bədənə qarışıq yaxılaraq termoyorğana bürünülür və prosedurdan sonra yuyunulur.

Hidroterapiyanın duş və müalicəvi vanna növləri var. Duş su axının orqanizmə müxtəlif forma, temperatur və təzyiqdə təsirindən ibarət müalicə prosedurudur və iki cür olur. Şarko duşu təzyiq altında isti və soyuq suların növbələşməsindən ibarətdir və həmin prosedurun təsiri nəticəsində baş və onurğa beyninin fəaliyyəti stimullaşır, qan-damar sistemi və immunitet möhkəmlənir. Vişi duşu təsirinə görə güclü yağışı xatırladır. Duş hidroterapevtik masaj proseduru kimi çox idealdır.

Müalicəvi vannalar isə təkcə su ilə olanlar deyil. Soyuq və sərin su vannaları orqanizmə tonuslandırıcı təsir göstərir, ürək-damar sistemini möhkəmləndirir, maddələr mübadiləsini stimullaşdırır. Sudan başqa günəş və hava vannaları da var.

Termiki prosedurlarda təbii və süni istilik mənbələrindən istifadə olunur. Məsələn, isti su vannaları, hamam, sauna, qızdırıcı islatmalar, müalicəvi palçıqlar, infraqırmızı lampalar, parafin, yüksək tezlikli cərəyan və s.

Su orqanizm üçün sağlamlıq və gümrahlığı təmin edir. Bitki və yosunların ekstraktları bədənə təsir edərək onu möhkəmləndirir və sağlamlaşdırır, balzamlar isə orqanizmə tonuslandırıcı təsir göstərir. SPA prosedurları zamanı istifadə olunan aromatik yağlar dərini tonuslandıraraq əhvali-ruhiyyəni yaxşılaşdırır. Sauna və buxar kimi SPA prosedurları bədəndən şlakları və toksinləri çıxarır, ürək-damar, ürək-qan-damar, tənəffüs və sinir sistemi fəaliyyətini tənzimləyir. Dərman bitkiləri və kontras su vannaları kiçik çanaq oynaqları, böyrək və sidikçıxarıcı sistemə müsbət təsir göstərir.

SPA prosedurları sellülit zamanı, dərinin piqment ləklərinin müalicə və profilaktikasında da istifadə olunur. Prosedurlar təkcə dəriyə və dərialtı toxumaya deyil, həmçinin bütövlükdə orqanizmə təsir edir, iş qabiliyyətini artır, oynaqlarda ağrını azaldır.



# QƏZALI “FUKUSİMA-1” AES-İN REAKTORLARINA BAXMAQ ÜÇÜN ROBOT BALIQ DÜZƏLDİLİB

***Yaponiyada 2011-ci ilin martında baş vermiş zəlzələ və sunami nəticəsində zərər çəkmiş “Fukusima-1” Atom Elektrik Stansiyasının (AES) nüvə reaktorlarını tədqiq etmək üçün robot balıq düzəldilib. Bu barədə Kyodo agentliyi məlumat yayıb.***

Məlumatda qeyd edilir ki, üzən qurğu iyunun 15-də Yokosuka şəhərində “Toshiba” şirkəti və Nüvə Reaktorlarının Sökülməsi Problemləri Üzrə Beynəlxalq İnstitut tərəfindən ictimaiyyətə təqdim olunub.

13x30 santimetr ölçüdə olan silindirik robot “Mini-mambo” adlandırılıb. Kabel vasitəsilə idarə edilən robot təhlükəsizlik qatını keçərək 3 nömrəli reaktora daxil olacaq. Altı metr dərinlikdə soyuducu suyun toplandığı sahədə robot zədələnmiş yerlərin fotosunu çəkəcək. Həmin məlumatlar əsasında reaktorun daxilindəki radioaktiv tullantının çıxarılması üçün işlər hesablanacaq.

AES-in operatoru olan TEPCO şirkəti əvvəllər soxulcan və əqrəb formalı robotlar vasitəsilə reaktorun daxilindəki vəziyyəti araşdırmağa çalışsa da hər iki cəhd uğursuzluqla nəticələnmişdi.



# HƏRƏ BİR ŞEY XOŞLAYIR

***Statistiklər qidalanmağa görə maraqlı faktlar ortaya çıxarıblar. Onların apardıqları hesablamalar il ərzində ayrı-ayrı ölkələrdə hansı qidanın çox sevildiyini aşkar edib.***

Hesablamalara görə, italyanlar ildə 30 kiloqrama qədər makaron yeyir. Həmin göstəriciyə görə ikinci yerdə almanlar, üçüncü yerdə isveçrəlilər və ruslar gedir. Rusiyada adambaşına düşən makaron istehlakı 5 kiloqramdır.

Pendirlə qidalanmaq sahəsində birincilik fransızlara məxsusdur. Onlar ildə 23 kiloqram pendir yeyirlər. Hollandiyada adambaşına düşən pendir istehlakı 10, Rusiyada 5 kiloqramdır.

Ketçupla qidalanmağa görə dünyanın iki nəhəng ölkəsi - ABŞ və Rusiya liderlik edir. Həmin ölkələrdə adambaşına il ərzində 1,7 kiloqram ketçup qəbul edilir.

İsveçrəlilər il ərzində 12 kiloqram şokolad yeyirlər. Rusiyada adambaşına şokolad istehlakı 5-7 kiloqramdır. Birləşmiş Ştatlar bu göstəriciyə görə həmin ölkələrdən bir qədər geridə qalır.

Ən çox dondurma Yeni Zelandiyada yeyilir. Həmin ölkənin sakinləri ildə 26, Amerika sakinləri 24,5, avstriyalılar 17,2 litr desert qəbul edirlər.

Maraqlıdır ki, ən çox pitsa yeyən ABŞ sakinləridir, bir ildə ölkədə hər kəs 13 kiloqram pitsa yeyir. İkinci yerdə gedən İtaliya sakinlərinin payına il ərzində 7 kiloqram pitsa düşür. 56 milyon əhalisi olan Aralıq dənizi ölkəsinin sakinləri hər həftə pitsa bişirilər.

Sakit okean sahillərində yerləşən Yaponiya dəniz məhsulları istehlakına görə aparıcı mövqe tutur. Gündoğar ölkənin sakinləri il ərzində 70 kiloqram dəniz məhsulları ilə qidalanırlar. Bu, digər ölkələrlə müqayisədə dörd dəfə çoxdur. Rusiyada balıqla qidalanma adambaşına 20-25 kiloqram təşkil edir.

# DƏNİZ SUYUNUN MİN ŞƏFASI VAR

***Yay istirahətini keçirmək üçün ən çox üz tutulan ünvanlardan biri də mavi dəniz sularıdır. Çimərlik mövsümündə dənizdə çimmək çox faydalıdır. Dəniz suyunun tərkibi qanın tərkibinə çox yaxındır.***



Suyun tərkibində olan mikroelementlərin müxtəlifliyi orqanizmə şəfaverici təsir göstərir. Məsələn, maqnezium immuniteti bərpa edir, kalsium sümükləri möhkəmləndirir, yod orqanizmin mübadilə prosesini, kalium qan təzyiqini normalaşdırır, brom sinirləri sakitləşdirir. Çimərkən mübadilə prosesinin fəallaşması hesabına orqanizmdə bir çox müsbət dəyişikliklər baş verir. Dəri örtüyünün məsamələri təmizlənir, mübadilə prosesləri sürətlənir, zərərli maddələr kənarlaşır, orqanizm bərpa olunur və cavanlaşır. Əbəs yerə dənizdə üzməyi damarların möhkəmləndirilməsi və əzələlərin rahatlaşmasına yönəldilmiş professional masajla eyniləşdirmirlər.

Suyun temperaturu həmişə bədənin temperaturundan aşağı olduğuna görə orqanizm xarici mühitə uyğunlaşmağa çalışır. Bədən hərarəti azalır, damarlar daralır, xarici temperatura öyrəşəndən sonra damarlar yenidən genişlənir. Bu, nəinki damarları möhkəmləndirir, həm də mübadilə sistemini sürətləndirir, arıqlamağa kömək edir.

Talassoterapiya dəniz və dəniz məhsulları ilə kompleks müalicədən, çimmə, hidromasaj, müalicəvi palçıq və yosun sarğıları kimi müalicəvi və profilaktik prosedurlardan ibarətdir. Xroniki yorğunluq, stress, damar və oynaq xəstəliklərində, sellülitin ağır formalarında olduqca faydalı təsirə malikdir.

Təcrübə göstərir ki, dənizdə çiməndən sonra bədəndə olan cızıq və çapıqlar tez sağalır, hematoma və göyərtilər itir. Həmin keyfiyyətlərinə görə ağciyər xəstəlikləri, səs tellərinin bərpası və bütün növ boğaz xəstəlikləri zamanı dəniz suyu məsləhət görülür.

Üzgüçülüklə məşğul olmaq istisnasız olaraq orqanizmin bütün əzələlərini möhkəmləndirir. Bu, nəinki fitnes, həm də əhval-ruhiyyəni qaldırmaq üçün əla vasitədir.

Dəniz kənarında qəbul edilən hava orqanizmi brom və maqnezium ionları ilə zənginləşdirir. Yod hissəcikləri ilə doymuş oksigen isə ağciyər xəstəliklərinin müalicəsində çox faydalı təsir göstərir.

# YARIZARAFAT, YARIGERÇƏK

**Dost itirməkdən və düşmən qazanmaqdan asan heç nə yoxdur.**

**Qulağa, gözün gördüyündən artıq inanma.**

**Ağlın olması kifayət etmir. Gərək həm də ağıl heç vaxt başdan çıxmasın.**

**Adam var yalanı yalanla, adam var həqiqəti yalanla qarışdırmağı xoşlayır.**

**Hər yol, hətta sonu olmayan yollar da adamı harasa aparır.**

**Uçurumun kənarında ayaq saxlamaq kifayət deyil. Qayıtmaq lazımdır.**

**Hər kəsin həyatı tapmacadır. Cavabını bəzən heç sahibi də bilmir.**

**Çox danışan çox çaşar.**

**Yalan yıxan evlərə görə kompensasiya verilir?**

**Həmişə haqlı olduğunu düşünmək o demək deyil ki, nə vaxtsa haqlı olmusan.**

**Söz az olsun, yaxşı olsun.**

**Yaltaqlıq işləyən yerdə bütün yaxşı işləyənlərin işi yaxşı getməz.**

**Hətta gül də tikansız olsa yaxşıdır.**

**Bütün ömrüm boyu hamını bağışladım və bu, yəqin ki, mənim bağışlanılmaz ən böyük səhvimdir.**

**Yüksəlmək üçün kiminsə önündə zərrəcə də alçalmaq lazım deyil.**

**Ədalətin gücsüz olduğu yerdə hər kəs istədiyini etməyə özündə güc tapar.**

**Özünü yaxşı göstərməyə çalışanlar kaş bir dəfə də kiməsə yaxşılıq edəydilər.**

**Bir daşla divar hörülməsə də, bir sözlə ev yıxmaq olar.**

**Mən həyatdan heç nə istəmədim, bəlkə ona görə də heç nə vermədi.**

**Pis başladığın işi də yaxşı qurtarmağa çalış.**

**Bəzi heyvanlarla adam kimi danışanda adamı bəzi adamlardan daha yaxşı başa düşür.**

**Pul ver, söz vermə.**

**Dost atan pambıq da baş yarar.**

**Ən böyük nadan düşündüyü hər şeyi söyləyəndir.**

**Adamın dili uzağı hansı uzunluqda ola bilər?**

**Vay o günə ki, böyüklər böyüklük etməyi bacarmaya.**

**O yerdə ki, başı xarabların işi sazdı, başı sazların işi mütləq axsıyacaq.**

**Yaxşı görünmək istəyirsənsə, yaxşı ol.**

**Hər kəs verdiyindən daha artıq almaq istədiyindən həmişə kimlərəsə çox şey çatmayacaq.**

**Öz işinə aid hər şeyi bilməyənə çox şeydən nəyisə bilməyinin nə faydası?**

**Arxa durduğun arxandan vurursa, yerdən qaldırdığın da yerə yıxmağa çalışacaq.**

**Ən pis günüm şükür eləmədiyim gündür.**

**Heç kəsə o qədər yaxınlaşmayın ki, uzaqlaşmaq çətin olsun.**

**Lazım olanı etmirsənsə, nə etməyinin mənası yoxdur.**

**Meyvəsi faydalı olmayan ağacdan meyvəsiz ağac yaxşıdır.**

**Cahillik gözünü yumub - zülmətdə yaşamaqdır.**

**Keçmişə boylananda içindən ən çox “Kaş ki!” qopursa, deməli səhvlərin az olmayıb.**

**Nə vaxtsa əzilmək istəmirsənsə, heç vaxt əyilmə.**

**Ağaca elə gəlir ki, külək onun budaqlarını yellətmək üçün əsir.**

**Həya azaldıqca günahların artmaq ehtimalı çoxalır.**

**Çox iş görmək istəyirsənsə, bir işi bitirməmiş digərini başlama.**

**Qalib olmağı öyrən və sənə bütün əziyyətlərini unutduran sevincini yaşa.**

**Həyatda qorxduğum yeganə bir şey var: kiməsə yük olmaq. Hətta öləndən sonra belə kiməsə yük ola biləcəyimi düşünəndə, ölmək istəmirəm.**

**Heç vaxt səhv etmədiyini düşünənlərin düşüncəsi elə o qədərdir.**

**Üzdə də, arxada da eyni şeyi deyəcəksənsə, nə istəyirsən, de.**

**Pisliklərin ən pisi yaxşılığa da pisliklə cavab vermək, yaxşılıqların ən yaxşısı pisliyə də yaxşılıqla cavab verməkdir.**

**Pis adam hər pisliyini qələbə kimi qeyd edə bilər, əsl qələbəni isə heç vaxt.**

**Allahım, çörəyini başqası ilə bölənlərin çörəyini kəsmə.**

**Adamın xasiyyəti qızıl olmayanda paslanmaq ehtimalı çoxalır.**

**Kirli düşüncələri olan adam bütün dünyanı çirkləndirə bilər.**

**Düşmənin varsa, təkcə yatmamaqla iş aşmır, gözlərini də həmişə dörd açmalısan.**

**Ən zəif adamlar yaxşılığa gücü çatmayan adamlardır.**

**Göz yaşı tez quruyur deyə başqalarını tez-tez ağlatmaq lazım deyil.**

**Dinləməyi bacarmırsansa, mübahisə etmə. Mübahisə etməyi bacarmırsansa, ya mübahisə etmə, ya da mənasız savaşa hazır ol.**

**Fəlakət mənə yaşamağı öyrətdi. Zəlzələ anında dərk etdim ki, o dünyaya heç nə apara bilməyəcəyəm.**

**Yekə-yekə danışanların əlindən adətən heç kiçik işlər də gəlmir.**

**Atasına baş əyməyənin başını nə vaxtsa oğlu əyəcək.**

**İstedadsız adamların qabağa çəkilməsi yaxşıdır. Nə qədər qabağa çəkilsələr, bizdən o qədər uzaq olacaqlar. Bizdən nə qədər uzaq olsalar, qanımız da o qədər az qaralacaq.**

***Rasif TAHİROV***



## HƏBSDƏN YAXA QURTARMAQ ÜÇÜN 14 MİLYON AVRODAN ÇOX PUL ÖDƏYƏCƏK

***Madridin "Real" futbol komandasının və Portuqaliya yığmasının hücumçusu Kriştiano Ronaldo vergi ödəməkdən yayınma barədə iş üzrə həbsdən yaxa qurtarmaq üçün İspaniya xəzinəsinə 14,8 milyon avro ödəyəcək.***

"P-sport" nəşri "Cope" portalına istinadla xəbər verir ki, bu məbləğin ödənilməsi yüngülləşdirici hal hesab ediləcək və sonradan istintaqla sövdələşmək üçün əsas olacaq.

Xatırladaq ki, İspaniya prokurorluğu Ronaldonun barəsində 2011-2014-cü illərdə 14,8 milyon avro məbləğində verginin ödənilməməsi ilə bağlı ittiham üzrə cinayət işi qaldırıb.

Gözlənildiyinə görə, iyulun 31-də futbolçu İspaniya məhkəməsində çıxış edəcək, vəkilləri isə onun həbs olunması riskini istisna etmək üçün istintaqla sövdələşəcəklər.

Bu yaxınlarda "Barselona"nın hücumçusu Lionel Messi barəsində də oxşar ittiham irəli sürülüb. Məhkəmə Messini 21 ay şərti həbs cəzasına məhkum edib.

## 2018-Cİ İLDƏ FORMULA-1 AZƏRBAYCAN QRAN-PRİSİ APREL AYINDA KEÇİRİLƏCƏK



***2018-ci ildə Formula-1 Azərbaycan Qran-Prisi aprelin 27-29-da keçiriləcək.***

Bu barədə məlumat Beynəlxalq Avtomobil Federasiyasının saytında yer alıb. Növbəti mövsümün təqviminə 21 mərhələ daxildir. Çempionat martın 23-25-də Melburnda Avstraliya Qran-Prisi ilə başlayacaq, noyabrın 23-25-də Əbu-Dabidə başa çatacaq.

İndiyə olan məlumata görə, Çin və Sinqapur mərhələləri kommersiya hüquqları sahibləri tərəfindən təsdiqlənməyib. Fransa Qran-Prisi on il keçəndən sonra, Almaniya Qran-Prisi (Xoffenxaymda keçiriləcək) bir il keçəndən sonra çempionata qayıdır. Malayziya mərhələsi təqvimi tərk edib. Əvvəlki iki mövsümü yazda olmuş Rusiya Qran-Prisinin vaxtı sentyabra keçirilib.

Çempionatının tarixində ilk dəfə Qran-Pri üç həftəsonu ardıcıl keçirilə bilər: təqvimin indiki cədvəlinə görə, komandalar mərhələləri ardıcıl olaraq Fransada (Formula-1-ə rəsmən qayıdır), Avstriyada və Böyük Britaniyada keçirəcəklər. Beləliklə, 2018-ci ildə Formula-1-in təqvimi aşağıdakı kimidir:

25 mart – Avstraliya Qran-Prisi
8 aprel – Çin Qran-Prisi
15 aprel – Bəhreyn Qran-Prisi
29 aprel – Azərbaycan Qran-Prisi
13 may – İspaniya Qran-Prisi
27 may – Monako Qran-Prisi
10 iyun – Kanada Qran-Prisi
24 iyun – Fransa Qran-Prisi
1 iyul – Avstriya Qran-Prisi
8 iyul – Böyük Britaniya Qran-Prisi
22 iyul – Almaniya Qran-Prisi
29 iyul – Macarıstan Qran-Prisi
26 avqust – Belçika Qran-Prisi
2 sentyabr – İtaliya Qran-Prisi
16 sentyabr – Sinqapur Qran-Prisi
30 sentyabr – Rusiya Qran-Prisi
7 oktyabr – Yaponiya Qran-Prisi
21 oktyabr – ABŞ Qran-Prisi
28 oktyabr – Meksika Qran-Prisi
11 noyabr – Braziliya Qran-Prisi
25 noyabr – Əbu-Dabi Qran-Prisi.




## AZƏRBAYCAN MİLLİSİ "A" QRUPUNDA ALMANİYA, POLŞA VƏ MACARISTAN YIĞMA KOMANDALARI İLƏ MÜBARİZƏ APARACAQ

***Azərbaycanın və Gürcüstanın birgə ev sahibliyi edəcəyi qadın voleybol komandaları arasında Avropa çempionatı sentyabrın 22-dən oktyabrın 1-dək keçiriləcək. Gürcüstanda cəmi bir qrupun görüşləri və dörddəbir final oyunları olacaq. Digər üç qrupun görüşlərindən biri Göygöldə, ikisi isə Bakıda keçiriləcək. Yarımfinal və final görüşləri də Bakıda baş tutacaq.***

Azərbaycan millisi "A" qrupunda Almaniya, Polşa və Macarıstan yığma komandaları ilə birgə mübarizə aparacaq. "B" qrupunda Gürcüstan, İtaliya, Xorvatiya və Belarus yığmaları yarışacaq. Rusiya, Türkiyə, Bolqarıstan və Ukrayna millilərі "C", Serbiya, Niderland, Belçika və Çexiya yığmaları isə "D" qrupunda güclərini sınayacaqlar.

Çempionata ev sahibliyi edən Azərbaycan və Gürcüstan, həmçinin "Avro-2015"in mükafatçıları Rusiya, Hollandiya, Serbiya, eləcə də ilk beşlikdə qərarlaşan Türkiyə və Almaniya mötəbər yarışa birbaşa final mərhələsindən başlayacaqlar. İtaliya, Belçika, Polşa, Xorvatiya, Bolqarıstan və Belarus çempionata ikinci seçmə mərhələdən, Çexiya, Ukrayna və Macarıstan isə pley-offdan qoşulacaqlar.

## AZƏRBAYCAN İDMANÇISI K-1 ÜZRƏ DÜNYA QRAN-PRİSİNİN ÇEMPİONUDUR



***Yaponiyanın Saytama şəhərində keçirilən "K-1 World Grand Prix-2017" turnirində çıxış edən Azərbaycan kikboksçusu Çingiz Allazov ardıcıl üç qələbə qazanaraq çempion olub.***

Kikboksçumuz dörddəbir finalda yaponiyalı K-1 ustası Xiroki Nakadjimaya ikinci raundda nokautla qalib gəlib. Yarımfinal döyüşündə isə idmançımız "Mike's Gym" klubunu təmsil edən Yordan Pikeri üçüncü dəqiqədə nokautla məğlub edib.

Ç.Allazov final döyüşündə turnirin favoritlərindən hesab edilən Yaponiya təmsilçisi Sanni Daxlbeki üzərində qələbə qazanıb və yarışın ən yaxşı döyüşçüsünə verilən kəmərə sahib olub.








## VETERAN CÜDOÇULARIMIZ AVROPA ÇEMPİONATININ QALİBİ OLUBLAR

***Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən veteran cüdoçular arasında Avropa çempionatının komanda yarışları millimiz üçün uğurlu olub.***

Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, 30-40 yaş kateqoriyası üzrə komanda yarışında mübarizə aparan millimiz bütün rəqiblərinə qalib gələrək Avropa çempionu adını qazanıb.

Qeyd edək ki, fərdi yarışlarda veteran cüdoçularımız 4 qızıl, 4 gümüş və 2 bürünc medal qazanıblar.






BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1005, Bakı şəhəri,
M. Ə. Rəsulzadə küçəsi, 5
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1853